**Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlər haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin strukturuna daxil olan aşağıdakı qurumların əsasnamələri təsdiq edilsin:

1.1. Dövlət Yanğın Nəzarəti Xidməti haqqında Əsasnamə (əlavə olunur);

1.2. Mülki Müdafiə qoşunları haqqında Əsasnamə (əlavə olunur);

1.3. Hərbiləşdirilmiş Xüsusi Mühafizə Xidməti haqqında Əsasnamə (əlavə olunur);

1.4. Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyi haqqında Əsasnamə (əlavə olunur);

1.5. Dövlət Material Ehtiyatları Agentliyi haqqında Əsasnamə (əlavə olunur);

1.6. Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi haqqında Əsasnamə (əlavə olunur).

2. Ləğv olunmuş Azərbaycan Respublikasının Dövlət Tikinti və Arxitektura Komitəsinin "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutu (Mühəndis-axtarış Mərkəzi ilə birlikdə), "Azərinşaatlayihə" Dövlət Baş Layihə - Konstruktor və Texnoloji İnstitutu, "Azkommunlayihə" Kommunal Layihələndirmə İnstitutu və Tikintidə Qiymətqoyma Mərkəzi Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin tabeliyinə verilsin.

3. "Azərbaycan Respublikasının Fövqəladə Hallar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 13 dekabr tarixli 244 nömrəli Sərəncamı qüvvədən düşmüş hesab edilsin.

4. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin strukturuna daxil olan Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-mədən Nəzarəti Agentliyinin adı Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-mədən Nəzarəti Dövlət Agentliyi adlandırılsın.

5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

5.1. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin strukturuna daxil olan Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-mədən Nəzarəti Dövlət Agentliyinin Əsasnaməsinin layihəsini hazırlayıb on beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. qüvvədə olan normativ hüquqi aktların bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 dekabr 2006-cı il

№ 511

Azərbaycan Respublikası Prezidentinin

2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanı ilə

TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti haqqında

## Ə S A S N A M Ə

## I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti (bundan sonra - Xidmət) ölkə ərazisində binaların və qurğuların layihələndirilməsi, tikintisi, yenidən qurulması, təmiri, istismarı dövründə yanğın təhlükəsizliyi norma və qaydalarının tələblərinə riayət olunmasına nəzarəti təmin edən, yanğın təhlükəsizliyi sahəsində məcburi qaydada sertifikatlaşdırılan məhsulların və xidmətlərin sertifikatlaşdırılmasını aparan, daşınmaz əmlakın (yaşayış binaları, yaşayış evləri və mənzillərin icbari sığortası istisna olmaqla) və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari qaydada sığortalanmasına nəzarəti həyata keçirən icra hakimiyyəti orqanıdır.i[1]

2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (bundan sonra - Nazirlik) əmr və göstərişlərini rəhbər tutur.

3. Xidmət fəaliyyətini bilavasitə tabeliyində olan strukturlar vasitəsilə həyata keçirir.

4. Xidmət müstəqil balansa, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, Nazirliyin və Xidmətin adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara, xəzinə və bank hesablarına malikdir.

5. Xidmətin saxlanması xərcləri və fəaliyyəti Nazirlik tərəfindən təsdiq olunmuş xərc smetasına uyğun olaraq ayrılmış büdcə vəsaiti və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

6. Xidmət Bakı şəhərində yerləşir.

## II. XİDMƏTİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

7. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

7.1. yanğın təhlükəsizliyi sahəsində dövlət siyasətinin işlənib hazırlanmasında və bu sahədə normativ hüquqi tənzimləmənin həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak edir;

7.2. yanğın təhlükəsizliyi sahəsində normaların, standartların və qaydaların tələblərinə riayət olunmasına nəzarəti təmin edir;ii[2]

7.3. yanğın təhlükəsizliyi sahəsində məcburi qaydada sertifikatlaşdırılan məhsulların və xidmətlərin sertifikatlaşdırılmasını həyata keçirir;

7.4. yanğın təhlükəsizliyi sahəsində idarəetməni, əlaqələndirməni və dövlət yanğın nəzarətini həyata keçirir;

7.5. Xidmətin fəaliyyət dairəsinə aid edilən sahələrin inkişafını təmin edir;

7.6. qanunvericiliklə qadağan edilməyən digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. XİDMƏTİN VƏZİFƏLƏRİ

8. Xidmət bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

8.1. ölkə ərazisində yanğın təhlükəsizliyi sahəsində dövlət siyasətinin və tənzimlənməsinin işlənib hazırlanmasında Nazirliyə təkliflər vermək, bu sahədə idarəetməni, əlaqələndirməni və nəzarəti həyata keçirmək;

8.2. dövlət yanğın nəzarəti orqanlarının fəaliyyətini istiqamətləndirmək məqsədilə qabaqlayıcı tədbirlərin görülməsi üçün yanğın təhlükəsizliyinin monitorinqini və proqnozlaşdırılmasını həyata keçirmək;

8.3. yanğın təhlükəsizliyi sahəsində dövlət və məqsədli proqramların işlənib hazırlanmasını və həyata keçirilməsini təmin etmək;

8.4. dövlət yanğın təhlükəsizliyi üzrə standartların, normaların, qaydaların və yanğın təhlükəsizliyinə dair normativ hüquqi sənədlərin layihəsini hazırlamaq və icrasını təmin etmək;

8.5. idarədənkənar və könüllü yanğından mühafizə bölmələrinin (dəstələrinin) yaradılması qaydalarının və nümunəvi əsasnamələrinin layihələrini hazırlamaq və təsdiq olunmaq üçün təqdim etmək;iii[3]

8.6. yanğın təhlükəsizliyi şərtləri nəzərə alınmaqla əhalinin və təsərrüfat obyektlərinin ölkə ərazisində yerləşdirilməsində və şəhərsalma işlərinin Baş planının işlənib hazırlanmasında iştirak etmək;

8.7. icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər tərəfindən yanğın təhlükəsizliyi ilə bağlı qanunvericiliklə müəyyən olunmuş tələblərin yerinə yetirilməsinə öz səlahiyyətləri daxilində nəzarət etmək;

8.8. yanğın-texniki avadanlıqların və vasitələrin istehsalında yerinə yetirilməsi məcburi olan norma və qaydaları hazırlamaq və təsdiq olunmaq üçün müvafiq qaydada təqdim etmək;

8.9. qanunvericiliklə müəyyən edilmiş qaydada ölkə ərazisində yanğından mühafizəni və yanğın təhlükəsizliyi sahəsində işlərin görülməsini və xidmətlərin göstərilməsini təşkil etmək;

8.10. qanunvericiliklə müəyyən edilmiş qaydada yanğın təhlükəsizliyi tələblərinin yerinə yetirilməsinə nəzarət etmək;

8.11. yanğın təhlükəsizliyi sahəsində normaların, standartların və qaydaların tələblərinə uyğun olaraq mütləq qaydada yanğından mühafizəsi təşkil edilməli təhlükə potensiallı müəssisələrin siyahısını hazırlamaq və Nazirliyə təqdim etmək;**iv[4]**

8.12. qanunvericiliklə müəyyən edilmiş normalara uyğun olaraq büdcə vəsaiti hesabına maliyyələşdirilən yanğın xidmətinin yaradılması barədə Nazirlik qarşısında məsələ qaldırmaq;

8.13. yanğınların və onların nəticələrinin vahid statistik uçotunu və analitik təhlilini aparmaq;

8.14. yanğın təhlükəsizliyi sahəsində məcburi qaydada sertifikatlaşdırılan məhsul və xidmətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada sertifikatlar vermək, habelə onların qüvvəsini müvəqqəti dayandırmaq və ləğv etmək;

8.15. müəssisələrin, binaların, qurğuların və digər obyektlərin tikintisinə, əsaslı təmirinə, yenidən qurulmasına, genişləndirilməsinə və texniki cəhətdən dəyişdirilməsinə dair şəhərsalma və layihə-smeta sənədlərini yanğın təhlükəsizliyi tələblərinə əməl olunması baxımından razılaşdırmaq;

8.16. tikinti meydançalarının (trasların) seçilməsi və tikintisi başa çatmış obyektlərin istismara qəbulu üzrə yaradılmış komissiyaların tərkibində Nazirlik adından həlledici səs hüququ ilə iştirak etmək, torpaq sahələrinin tikinti məqsədləri üçün ayrılması mərhələsində yanğın təhlükəsizliyi baxımından həmin sahələrin ayrılmasının mümkünlüyü barədə rəy vermək;

8.17. qüvvədə olan qanunvericiliyə uyğun olaraq yanğın hadisələri və yanğın təhlükəsizliyi qaydalarının pozulması üzrə təhqiqat aparmaq, yanğın təhlükəsizliyi sahəsində inzibati xətalar haqqında işlərə baxmaq və öz səlahiyyətləri daxilində qərar qəbul etmək;

8.18. yanğın texnikası və yanğınsöndürücü vasitələrin, maddələrin, materialların, məmulatların, avadanlıqların və konstruksiyaların yanğın təhlükəsizliyi sınaqlarının aparılmasını təşkil etmək;

8.19. yanğın təhlükəsizliyinə aid məsələlərlə bağlı fəaliyyət növlərinə qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada xüsusi razılıq (lisenziya) verilməsini həyata keçirmək;

8.20. idarədənkənar və könüllü yanğından mühafizəni gücləndirmək, hərtərəfli inkişafına köməklik göstərmək və onların şəxsi heyətinin hazırlığını təşkil etmək;

8.21. yanğın təhlükəsizliyinin təbliği sahəsində yanğın-texniki ədəbiyyat, plakat, yaddaş kitabçalarının nəşrini və yanğın təhlükəsizliyi mövzusunda kinofilmlərin buraxılmasını təşkil etmək;

8.22. Xidmətin yerli yanğın nəzarəti orqanlarının fəaliyyətini əlaqələndirmək və xidmətin təşkilinə nəzarəti təmin etmək;

8.23. yanğın təhlükəsizliyi məsələləri ilə bağlı respublika üzrə yığıncaq, müşavirə və elmi-praktik konfranslar keçirmək təşəbbüsü ilə çıxış etmək və səlahiyyətləri daxilində bu işi təşkil etmək;

8.24. binalarda, qurğularda, nəqliyyat vasitələrində və digər obyektlərdə mövcudluğu zəruri olan yanğınsöndürmə vasitələrinin və inventarlarının siyahısını hazırlamaq və təsdiq olunmaq üçün təqdim etmək;

8.25. layihə və layihə-axtarış işlərini aparan müəssisələrdə hazırlanan layihə-smeta sənədlərinə yanğın təhlükəsizliyi baxımından seçmə yolu ilə nəzarət etmək;

8.26. daşınmaz əmlakın (yaşayış binaları, yaşayış evləri və mənzillərin icbari sığortası istisna olmaqla) və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari qaydada sığortalanmasına nəzarət etmək;**v[5]**

8.27. ölkə ərazisində yaşayış məntəqələrinin və müəssisələrin yanğından mühafizə və xilasetmə vasitələrinin istifadəyə hazırlıq vəziyyətinə nəzarət etmək;

8.28. ölkədə yanğın təhlükəsizliyi texnikası, avadanlığı və ləvazimatlarının istehsalı haqqında təkliflər hazırlamaq və Nazirliyə təqdim etmək;

8.29. yanğın təhlükəsizliyinin təmin olunması ilə bağlı təlimlərin və məşqlərin keçirilməsi qaydalarını hazırlamaq və təsdiq olunmaq üçün Nazirliyə təqdim etmək;

8.30. yanğından mühafizə xidmətinin idarəetmə orqanlarının və bölmələrinin hərbi və səfərbərlik hazırlığı səviyyəsinin saxlanmasını təmin etmək;

8.31. Nazirliyin strukturuna daxil olan Dövlət Yanğından Mühafizə Xidmətindən ölkə ərazisində baş vermiş yanğınlar barəsində operativ məlumatlar almaq və qanunvericiliklə nəzərdə tutulmuş tədbirləri həyata keçirmək;

8.32. yanğın təhlükəsizliyi sahəsində elmi tədqiqat və təcrübə-konstruktor işlərini aparmaq;

8.33. yanğın təhlükəsizliyi ilə bağlı əhalinin maarifləndirilməsi işini təşkil etmək, başqa dövlət orqanları və ictimai təşkilatlar tərəfindən aparılan bu kimi işlərə metodiki rəhbərlik etmək;

8.34. respublikada yanğına qarşı mövcud operativ şəraiti nəzərə alaraq, dövlət yanğın nəzarəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə tədbirlər işləyib həyata keçirmək;

8.35. yanğın təhlükəsizliyinin təmin olunması sahəsində fəaliyyət göstərən təşkilatların akkreditasiya qaydalarını işləyib hazırlamaq və həyata keçirmək;

8.36. ayrılan büdcə və digər maliyyə vəsaitlərindən səmərəli istifadə olunmasını təmin etmək;

8.37. maddi və maliyyə vəsaitlərindən istifadəyə nəzarət etmək, müəyyən olunmuş qaydada uçotunu aparmaq;

8.38. Xidmətin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək və öz səlahiyyətləri daxilində tədbirlər görmək;

8.39. Xidmətə daxil olan strukturların maddi-texniki və sosial bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər vermək;

8.40. Xidmətin struktur bölmələrinin yaradılması, yenidən təşkili və ya ləğv edilməsi barədə Nazirliyə təkliflər vermək;

8.41. Xidmətin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

8.42. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. XİDMƏTİN HÜQUQLARI

9. Xidmət öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. yanğın təhlükəsizliyinin təmin edilməsi üçün təxirəsalınmaz tədbirlərin aparılması barədə fiziki və hüquqi şəxslər qarşısında məsələ qaldırmaq;

9.2. qanunvericiliklə müəyyən edilmiş qaydada yanğın təhlükəsizliyi sertifikatı verilməsi nəzərdə tutulan malların yanğın təhlükəsizliyi sertifikatı verilmədən respublika ərazisində istifadəsini qadağan etmək;

9.3. yanğın təhlükəsizliyi sahəsində normaların, standartların və qaydaların tələblərinin pozulmasının qarşısını almaq məqsədilə fiziki və hüquqi şəxslərə məxsus ərazilərdə, binalarda, qurğularda və digər obyektlərdə qanunvericiliklə nəzərdə tutulmuş qaydada müayinələr aparmaq və onlardan yanğın təhlükəsizliyi vəziyyətini səciyyələndirən məlumatları və sənədləri tələb etmək;**vi[6]**

9.4. idarədənkənar və könüllü yanğından mühafizə bölməsi (dəstəsi) olan müəssisə və təşkilatların obyektlərində dövlət yanğın nəzarətini həyata keçirmək və Xidmətin yerli qurumlarının fəaliyyətinə rəhbərlik etmək;**vii[7]**

9.5. layihələndirmə, tikinti və quraşdırma işlərinin aparılması zamanı yanğın təhlükəsizliyi, norma və qaydalarına riayət olunmasına nəzarəti həyata keçirmək;

9.6. dövlət yanğın nəzarəti orqanlarının göstərişlərinin yerinə yetirilməməsi hallarında qanunvericiliyə uyğun tədbirlər görmək;

9.7. işlərin görülməsi və xidmətlərin göstərilməsi zamanı yanğın təhlükəsizliyi qaydalarının pozulması ilə yanğın təhlükəsi yarandıqda, eləcə də müəssisələrin, binaların, qurğuların tikintisi zamanı yanğın

təhlükəsizliyi standartlarının, norma və qaydalarının tələbləri yerinə yetirilmədikdə, müəssisələrin, istehsalat sahələrinin, aqreqatların işini, binaların, qurğuların və nəqliyyat vasitələrinin istismarını və işlərin görülməsini tamamilə və ya qismən dayandırmaq barədə qərar qəbul etmək;

9.8. Azərbaycan Respublikasının qanunvericililiyi ilə nəzərdə tutulmuş hallarda və qaydada yanğın təhlükəsizliyi standartlarını, normalarını və qaydalarını pozan şəxslər barəsində tədbirlər görmək;

9.9. qanunvericilikdə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxmaq hüququ olan vəzifəli şəxslər barədə Nazirliyə təkliflər vermək;

9.10. istehsalat materiallarının, məmulatların, avadanlıqların və konstruksiyaların yanğın təhlükəsizliyi üzrə sınaqlarının keçirilməsini, ətraf mühitin yanğın təhlükəsizliyinin müayinəsinin aparılmasını, yanğına qarşı müdafiə sistemi və vasitələrinin yoxlanmasını müəssisə və təşkilatlardan tələb etmək;

9.11. Xidmətin xüsusi rütbəsi olan əməkdaşlarının, digər işçilərinin və onların ailə üzvlərinin, habelə pensiyaçılarının sağlamlığının qorunması istiqamətində qanunvericiliklə müəyyən edilmiş qaydada kompleks profilaktika, müalicə, sanatoriya-kurort və digər sosial müdafiə tədbirlərinin həyata keçirilməsi barədə Nazirliyə təkliflər vermək; **viii[8]**

9.12. yanğınlar haqqında əhalini xəbərdar etmək və məlumatlandırmaq üçün mülkiyyət formasından asılı olmayaraq bütün kütləvi informasiya vasitələrinin imkanlarından əvəzsiz olaraq istifadə etmək;

9.13. yanğın təhlükəsizliyi sahəsi üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək, onlardan belə məlumatları (sənədləri) tələb etmək;

9.14. müvafiq beynəlxalq təşkilatlar və xarici dövlətlərin müvafiq yanğın nəzarəti orqanları ilə öz səlahiyyətləri daxilində əməkdaşlıq etmək və təcrübə mübadiləsi aparmaq;

9.15. yanğın təhlükəsizliyi sahəsində mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün Nazirliyə təkliflər hazırlamaq; **ix[9]**

9.16. qanunvericiliklə müəyyən edilmiş qaydada müstəqil ekspertlərin və mütəxəssislərin öz fəaliyyətinə cəlb edilməsi barədə Nazirlik qarşısında məsələ qaldırmaq;

9.17. Xidmətin fəaliyyəti ilə bağlı xüsusi bülletenlər və digər nəşrlər buraxmaq, internet səhifəsi açmaq və onlardan istifadə etmək barədə Nazirliyə təkliflər vermək;

9.18. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. XİDMƏTİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

10. Xidmətin aparatı və tabeliyində olan strukturlar Xidmətin vahid sistemini təşkil edir.

11. Xidmətin Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş büdcədən maliyyələşdirilən əməkdaşlarının say həddi daxilində aparatının və strukturuna daxil olan bölmələrin əməkdaşlarının sayı və ştat cədvəli, büdcə vəsaitləri üzrə xərclər və digər mənbələr hesabına gəlirlər və xərclər smetası Nazirlik tərəfindən təsdiq edilir.

12. Xidmətin aparatına və strukturuna daxil olan bölmələrə xidmətə qəbul və vəzifəyə təyin etmə, xidmətdən və vəzifədən azad etmə Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən həyata keçirilir.

Mülki şəxslərin Xidmətdə vəzifəyə təyin və vəzifədən azad edilməsi qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən həyata keçirilir.

13. Xidmətin əməkdaşlarının xidmətkeçmə qaydaları və şərtləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

14. Xidmətin xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə və xüsusi rütbəyə görə maaşlarının məbləği Azərbaycan Respublikasının Prezidenti tərəfindən, pul təminatının digər növlərinin ödənilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən, mülki işçilərinin əmək ödənişi isə qanunvericiliklə müəyyən edilir. **x[10]**

15. Xidmətdə qulluq etmiş əməkdaşların və onların ailə üzvlərinin pensiya təminatı qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

16. Xidmətin aparatının və büdcədən maliyyələşdirilən struktur bölmələrinin maliyyələşdirilməsi dövlət büdcəsində Nazirliyin saxlanılması üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

17. Xidmətin fəaliyyətinə Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən, öz vəzifələrinə görə, eyni zamanda Azərbaycan Respublikasının yanğın nəzarəti üzrə Baş dövlət inspektoru hesab edilən Xidmətin rəisi rəhbərlik edir.

18. Xidmətə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsinə görə Xidmətin rəisi şəxsən məsuliyyət daşıyır.

19. Xidmətin rəisinin Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır.

20. Rəis müavinləri, Xidmətin rəisi tərəfindən onlara həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

21. Xidmətin rəisi aşağıdakı səlahiyyətlərə malikdir:

21.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

21.2. öz müavinlərinin səlahiyyətlərini müəyyən edir;

21.3. Xidmətin aparatının və strukturuna daxil olan qurumların əməkdaşlarının vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Nazirliyə təkliflər verir;

21.4. Xidmətin maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir;

21.5. Xidmətin sisteminə daxil olan strukturların əməkdaşlarına qanunvericilikdə nəzərdə tutulmuş həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi barədə Nazirliyə təqdimat verir;

21.6. Xidmətin səlahiyyətlərinə aid edilən məsələlər üzrə növbəti il üçün Nazirliyin saxlanılması xərclərinin formalaşdırılması ilə bağlı təkliflər verir, fəaliyyəti ilə əlaqədar olaraq qanunvericiliklə müəyyən edilmiş mənbələr hesabına Nazirliyin büdcədənkənar vəsaitlərinin yaradılmasında iştirak edir və Nazirliyin təsdiq etdiyi gəlirlər və xərclər smetasına uyğun olaraq həmin vəsaitlərdən təyinatı üzrə istifadə olunmasını təmin edir;

21.7. Xidmətin aparatının və səlahiyyətləri daxilində tabeliyində olan strukturların fəaliyyətinə dair əmrlər və göstərişlər verir, normativ hüquqi aktların icrasını təşkil edir;

21.8. Xidmətin və strukturuna daxil olan bölmələrinin əməkdaşlarının və mülki işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması və maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirlik qarşısında məsələ qaldırır;

21.9. yanğın nəzarətinə aid edilən məsələlərlə bağlı məhkəmədə iddiaçı və cavabdeh qismində çıxış edir;

21.10. Xidmətin və strukturuna daxil olan bölmələrin texniki təchizat normaları barədə Nazirliyə təkliflər verir;

21.11. Xidmətin fəaliyyət dairəsinə aid məsələlər üzrə beynəlxalq danışıqlarda səlahiyyətləri daxilində iştirak edir;

21.12. Xidmətin struktur bölmələrinin əsasnamələrinin layihələrini hazırlayır və təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

21.13. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsini təmin edir;

21.14. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq digər hüquqlardan istifadə edir.

Azərbaycan Respublikası Prezidentinin

2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanı ilə

TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə qoşunları haqqında**

# Ə S A S N A M Ə

## I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə qoşunları (bundan sonra - mülki müdafiə qoşunları) mülki müdafiə tədbirlərini yerinə yetirən, əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması ilə bağlı çevik reaksiya verilməsini, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması zamanı qəzaxilasetmə və digər təxirəsalınmaz işlərin görülməsini təmin edən qurumdur.

2. Mülki müdafiə qoşunları öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrini, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (bundan sonra - Nazirlik) əmr və göstərişlərini rəhbər tutur.

3. Mülki müdafiə qoşunları öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

4. Mülki müdafiə qoşunları müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, Nazirliyin və Mülki müdafiə qoşunlarının adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara, bayraq və rəmzlərə malikdir.

5. Mülki müdafiə qoşunlarının saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

6. Mülki müdafiə qoşunları komandanlığı Bakı şəhərində yerləşir.

## II. MÜLKİ MÜDAFİƏ QOŞUNLARININ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

7. Mülki müdafiə qoşunlarının fəaliyyət istiqamətləri aşağıdakılardır:

7.1. mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması sahəsində dövlət siyasətinin və tənzimlənməsinin işlənib hazırlanmasında təkliflər verir və həyata keçirilməsində iştirak edir;

7.2. mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması sahəsində, eləcə də fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə Vahid Dövlət Sistemi daxilində icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi istiqamətində Nazirliyə təkliflər verir;

7.3. mülki müdafiə tədbirlərini yerinə yetirir, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında və müasir qırğın silahlarının təsirindən müdafiə edilməsində iştirak edir;

7.4. sülh və müharibə dövrünün fövqəladə hallarında zədələnmə ocaqlarında qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılmasını, çevik reaksiya verilməsini təşkil edir və humanitar yardımların idarə olunmasında iştirak edir;

7.5. Mülki müdafiə qoşunlarının səlahiyyətlərinə aid edilən məsələlər üzrə nəzarət funksiyalarını həyata keçirir;

7.6. Mülki müdafiə qoşunlarının fəaliyyət dairəsinə aid edilən sahələrin inkişafını təmin edir;

7.7. əhalinin, mülki müdafiə qoşunları və qüvvələrinin sülh və müharibə dövrünün fövqəladə hallarında fəaliyyətə hazırlanmasını təşkil edir;

7.8. Mülki müdafiə qoşunları qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə də fəaliyyət göstərir.

## III. MÜLKİ MÜDAFİƏ QOŞUNLARININ VƏZİFƏLƏRİ

8. Mülki müdafiə qoşunları bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

8.1. aşağıda göstərilən məsələlərlə bağlı təkliflərini Nazirliyə təqdim edir:

8.1.1. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı Azərbaycan Respublikasının Milli Konsepsiyası layihəsinin hazırlanması ilə bağlı;

8.1.2. mülki müdafiə planının hazırlanması və Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı bölgələrində mülki müdafiə planının həyata keçirilməsi barədə;

8.1.3. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələrin cəlb edilməsi ilə bağlı;

8.1.4. irimiqyaslı fövqəladə hallarda ölkənin bütün ərazisində və ya ayrıayrı bölgələrində fövqəladə vəziyyət elan etmək barədə;

8.1.5. əhalinin və ərazilərin fövqəladə hallar barədə xəbərdar edilməsi üzrə monitorinq, proqnozlaşdırma və digər qabaqlayıcı tədbirlər, fövqəladə halların nəticələrinin aradan qaldırılması və mülki müdafiənin vəziyyəti haqqında illik dövlət hesabatının hazırlanması ilə bağlı;

8.1.6. mülki müdafiə üzrə Azərbaycan Respublikası ərazisinin zonalara, şəhərlərinin qruplara və təsərrüfat obyektlərinin dərəcələrə bölünməsi qaydaları barədə;

8.1.7. mülki müdafiə tədbirlərinin təşkili və həyata keçirilməsi qaydaları ilə bağlı;

8.1.8. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tətbiq olunması və səfərbərlik planının, ölkə ərazisinin operativ istehkamlaşdırılması üzrə dövlət proqramının hazırlanması ilə bağlı;

8.1.9. mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, xilasetmə və digər təxirəsalınmaz işlərin görülməsi ilə bağlı təlimlərin və məşqlərin hazırlanması ilə bağlı;

8.1.10. mülki müdafiə, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əsas tədbirlərin illik planlarının hazırlanması üçün fəaliyyət istiqamətləri ilə bağlı;

8.1.11. Mülki müdafiə qoşunlarının fəaliyyəti ilə bağlı digər normativ hüquqi aktlar barəsində təkliflərini;

8.2. sülh dövründə:

8.2.1. Mülki müdafiə qoşunlarının tabeliyində olan birləşmələrin, hərbi hissələrin və bölmələrin Azərbaycan Respublikasının mülki müdafiə planında və Mülki müdafiə qoşunlarının səfərbərlik və döyüş hazırlığına gətirilməsi planında müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə bağlı tədbirlər görmək;

8.2.2. qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin yerinə yetirilməsi və qoşunların təminatı üçün nəzərdə tutulmuş silah, texnika və digər maddi-texniki vasitələri toplamaq, yerləşdirmək, saxlamaq və vaxtaşırı təzələmək;

8.2.3. fövqəladə halların qarşısının alınmasına yönəldilmiş tədbirlərdə iştirak etmək;

8.2.4 fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına cəlb edilən qüvvə və vasitələri hazırlamaq;

8.2.5. fövqəladə halların baş verdiyi zonalarda, eləcə də həmin zonalara hərəkət marşrutlarında radiasiya, kimyəvi və bakterioloji (bioloji) kəşfiyyat aparmaq;

8.2.6. ölkə ərazisində, fövqəladə halların dərhal məhdudlaşdırılması və nəticələrinin aradan qaldırılması üzrə qəza-xilasetmə və digər təxirəsalınmaz işləri yerinə yetirmək və Azərbaycan Respublikası ilə müvafiq müqavilələri olan digər xarici dövlətlərin ərazisində bu kimi işlərin görülməsində iştirak etmək;

8.2.7. əhalinin sanitar təmizlənməsi, texnika və əmlakın xüsusi təmizlənməsi, bina, qurğu və ərazilərin zərərsizləşdirilməsi işlərini yerinə yetirmək;

8.2.8. aviasiya bombaları və fuqaslarının zərərsizləşdirilməsi ilə bağlı pirotexniki işləri yerinə yetirmək;

8.2.9. iri meşə yanğınlarının məhdudlaşdırılmasında və aradan qaldırılmasında iştirak etmək;

8.2.10. fövqəladə halların baş verdiyi zonalarda humanitar yardımların mühafizəsinin təşkilində iştirak etmək;

8.2.11. fövqəladə hallardan ziyan çəkmiş əhalinin ərzaq, su, ilkin tələbat malları, müvəqqəti yaşayış və digər maddi vəsaitlər və xidmətlərlə təmin edilməsində, eləcə də ilk tibbi yardımın göstərilməsində iştirak etmək;

8.2.12. fövqəladə halların baş verdiyi zonalardan əhalinin, maddi və mədəni sərvətlərin evakuasiya (təxliyyə) edilməsi tədbirlərində iştirak etmək;

8.2.13. həyat təminatı obyektlərinin fəaliyyətinin bərpası işlərində iştirak etmək.

8.3. müharibə dövründə:

8.3.1 xəsarət ocaqlarında, çirklənmə (zəhərlənmə) və fəlakətli subasma zonalarında, eləcə də xəsarət ocaqlarına və həmin zonalara hərəkət marşrutlarında radiasiya, kimyəvi və bakterioloji (bioloji) kəşfiyyat aparmaq;

8.3.2. xəsarət ocaqlarında, çirklənmə (zəhərlənmə) və fəlakətli subasma zonalarında qəza-xilasetmə və digər təxirəsalınmaz işləri aparmaq;

8.3.3. əhalinin sanitar təmizlənməsi, texnika və əmlakın xüsusi təmizlənməsi, bina, qurğu və ərazilərin zərərsizləşdirilməsi işlərini yerinə yetirmək;

8.3.4. mülki müdafiə qüvvələrinin xəsarət ocaqlarına, çirklənmə (zəhərlənmə) və fəlakətli subasma zonalarına yeridilməsini təmin etmək;

8.3.5. xəsarət ocaqlarından, çirklənmə (zəhərlənmə) və fəlakətli subasma zonalarından əhalinin, maddi və mədəni sərvətlərin evakuasiya (təxliyyə) edilməsi tədbirlərində iştirak etmək;

8.3.6. aviasiya bombaları və fuqaslarının zərərsizləşdirilməsi ilə bağlı pirotexniki işlərin yerinə yetirilməsində iştirak etmək;

8.3.7. həyat təminatı obyektlərinin, aerodromların, yolların, körpülərin və arxa cəbhənin digər vacib infrastrukturlarının bərpa edilməsi işlərində və ərazinin müdafiəsi ilə bağlı digər vəzifələrin yerinə yetirilməsində iştirak etmək;

8.4. Mülki müdafiə qoşunlarının struktur bölmələrinin əsasnamələrinin və ya təlimatlarının layihələrini hazırlamaq və təsdiq edilmək üçün Nazirliyə təqdim etmək;

8.5. Mülki müdafiə qoşunlarının birləşmələri, hərbi hissələri və bölmələrinin əməliyyat, döyüş və səfərbərlik hazırlığı üzrə planlarını və tədris proqramlarını və Mülki müdafiə qoşunlarının fəaliyyəti ilə bağlı digər normativ hüquqi sənədlərin layihələrini hazırlamaq və təsdiq edilmək üçün Nazirliyə təqdim etmək;

8.6. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı Azərbaycan Respublikasının Milli Konsepsiyasının və digər proqramların həyata keçirilməsində iştirak etmək;

8.7. fövqəladə hallarda humanitar yardımların, o cümlədən xarici ölkələrdən alınan və xarici ölkələrə göstərilən humanitar yardımların idarə olunmasında öz səlahiyyətləri daxilində iştirak etmək;

8.8. mülki müdafiə qüvvələrinin təlim və məşqlərini planlaşdırmaq, onların hazırlanması və həyata keçirilməsinə nəzarət etmək, təyinatı üzrə tətbiq edilməsini təşkil etmək;

8.9. Mülki müdafiə qoşunlarında xidmətin təhlükəsizliyini təmin etmək;

8.10. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə Vahid Dövlət Sistemi daxilində informasiya mübadiləsinin aparılmasında iştirak etmək;

8.11. icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının mülki müdafiə üzrə səfərbərlik tədbirlərinin hazırlanmasında iştirak etmək;

8.12. mülki müdafiə sahəsində vəzifələrin yerinə yetirilməsi ilə bağlı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, qanunvericiliyə uyğun olaraq yaradılmış digər hərbi birləşmələrin və qurumların qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsində iştirak etmək;

8.13. Mülki müdafiə qoşunlarının birləşmələrinin, hərbi hissələrinin və bölmələrinin döyüş və səfərbərlik hazırlığı səviyyəsinin saxlanılmasını təmin etmək;

8.14. sülh və müharibə dövrünün fövqəladə hallarında mülki müdafiə qüvvələrinin maddi-texniki və insan resurslarının səfərbər edilməsi imkanlarının cari və perspektiv planlaşdırılması barədə Nazirliyə təkliflər vermək;

8.15. Mülki müdafiə qoşunlarının fəaliyyət sahəsi üzrə informasiyanın toplanması və sistemləşdirilməsi məqsədilə xüsusi təyinatlı elektron informasiya sisteminin yaradılmasında iştirak etmək;

8.16. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasını operativ surətdə təşkil etmək məqsədilə Azərbaycan Respublikasının bütün ərazisini əhatə edən "Fövqəladə Halların İdarə Olunmasının Coğrafi İnformasiya Sistemi"nin (GİS) yaradılmasında iştirak etmək;

8.17. fövqəladə halların nəticələrinin aradan qaldırılması məqsədilə yaradılmış çevik yardım korpusunu idarə etmək;

8.18. Mülki müdafiə qoşunlarında xidməti və döyüş silahının dövriyyəsinə nəzarət etmək və döyüş sursatının saxlanması qaydalarına əməl olunmasını təmin etmək;

8.19. fövqəladə halların proqnozlaşdırılması və monitorinq sisteminin yaradılması üzrə zəruri tədbirlərin həyata keçirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

8.20. müvafiq dövlət orqanları ilə birlikdə minalanmış ərazilərin minalardan təmizlənməsində iştirak etmək;

8.21. tabeliyində olan hərbi qulluqçuların və fövqəladə halların nəticələrinin aradan qaldırılmasında iştirak edən digər şəxslərin həyatının icbari sığortalanması ilə bağlı tədbirlər görmək;

8.22. mülki müdafiənin fəaliyyət sahələri üzrə kadrların peşə və xüsusi hazırlığını, onların əlavə təhsilini təmin etmək; xi[11]

8.23. mülki müdafiə, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahələrində elmi tədqiqat işlərinin aparılmasında iştirak etmək;

8.24. insanların həyatı və sağlamlığı üçün təhlükə yarada biləcək fövqəladə hadisələr barəsində əhalinin vaxtında xəbərdar edilməsini aidiyyəti dövlət orqanları ilə birgə həyata keçirmək, belə hadisələrin nəticələrinə və onların aradan qaldırılması üçün görülmüş tədbirlərə dair əhaliyə məlumat vermək;

8.25. fövqəladə hallar təhlükəsi yarandıqda və baş verdikdə əhalinin operativ məlumatlandırılması məqsədilə qanunvericiliyə uyğun olaraq televiziya və radio yayımı kanallarından və digər kütləvi informasiya vasitələrindən istifadə etmək;

8.26. beynəlxalq təcrübə nəzərə alınmaqla fövqəladə halların nəticələrinin aradan qaldırılması sahəsində müasir texnika və texnologiyaların tətbiq edilməsi ilə bağlı tədbirlər görmək;

8.27. Mülki müdafiə qoşunlarına ayrılan büdcə və digər maliyyə vəsaitlərindən səmərəli istifadə olunmasını təmin etmək;

8.28. Mülki müdafiə qoşunlarında maddi və maliyyə vəsaitlərinin müəyyən olunmuş qaydada uçotunu təşkil etmək;

8.29. Mülki müdafiə qoşunlarının fəaliyyəti ilə bağlı dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün qanunvericiliyə uyğun tədbirlər görmək;

8.30. Mülki müdafiə qoşunlarının ştatının, təminat normalarının və təşkilati strukturlarının təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

8.31. Mülki müdafiə qoşunlarının hazırlıq vəziyyətində saxlanılmasını, gündəlik fəaliyyətinin idarə olunmasını və təyinatına görə tətbiq edilməsini təmin etmək, şəxsi heyət, habelə silah, avadanlıq və texnika ilə komplektləşdirilməsi barədə Nazirliyə təkliflər vermək;

8.32. Mülki müdafiə qoşunlarına daxil olan strukturların maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində tədbirlər görmək üçün Nazirlik qarşısında məsələ qaldırmaq;

8.33. icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarında, mülki müdafiə üzrə xüsusi əhəmiyyət kəsb edən obyektlərdə kompleks mülki müdafiə təlimlərinin keçirilməsində iştirak etmək;

8.34. ölkə ərazisində hərbi əməliyyatlar nəticəsində baş vermiş irimiqyaslı qəzalar zamanı hadisə rayonunda radioloji, kimyəvi, bioloji analizlərin aparılmasında və dəyən maddi ziyanın qiymətləndirilməsində iştirak etmək;

8.35. istehsal obyektlərinin, hidrotexniki qurğuların, dəniz və çay nəqliyyatı obyektlərinin, magistral kəmərlərin, avtomobil və dəmir yollarının, metropolitenin, rabitə sistemlərinin və digər istehsal və sosial infrastrukturların yaradılması və fəaliyyəti zamanı fövqəladə hadisələrin nəticələrinin maksimum azaldılmasına yönəldilmiş mühəndis-texniki tədbirlərin yerinə yetirilməsi sahəsində Nazirliyə təkliflər vermək;

8.36. respublikanın səfərbərlik ehtiyatı anbarlarında, mülkiyyət formasından asılı olmayaraq təsərrüfat obyektlərində olan fərdi və kollektiv müdafiə vasitələrinin, kimyəvi-kəşfiyyat, dozimetrik-nəzarət ölçü cihazlarının və digər əmlakların vaxtında toplanmasına, saxlanılmasına, təzələnməsinə, dövri olaraq laboratoriya sınaqlarından keçirilməsinə və təyinatı üzrə bölüşdürülməsinə nəzarət etmək, onların yararlığına rəy vermək;

8.37. fərdi və kollektiv müdafiə vasitələri fondunun yaradılmasına, saxlanılmasına, onların təsərrüfat maraqlarına, həmçinin təyinatı üzrə işçilərin və əhalinin müdafiəsi üçün istifadə olunmasına öz səlahiyyətləri daxilində nəzarət etmək;

8.38. əhaliyə fövqəladə hadisələrdən qorunma qaydaları və üsullarını, eyni zamanda mülki müdafiə tədbirlərinin öyrədilməsini təşkil etmək;

8.39. mülki müdafiə, fövqəladə hallardan qorunma ilə bağlı əhalinin maarifləndirilməsini təşkil etmək, dövlət orqanları və ictimai təşkilatlar tərəfindən bu sahədə aparılan işlərə metodiki rəhbərlik etmək;

8.40. fövqəladə halların proqnozlaşdırılması və monitorinq sisteminin yaradılması üzrə zəruri tədbirlərin həyata keçirilməsində iştirak etmək;

8.41. potensial təhlükəli obyektlərin yerləşdiyi ərazilərdə lokal xəbərdarlıq sisteminin yaradılması ilə bağlı təkliflər vermək;

8.42. sığınacaqların və mülki müdafiənin digər obyektlərinin, o cümlədən ikili təyinatlı obyektlərin hazırlıq vəziyyətində saxlanılmasına nəzarət etmək, əhalinin radiasiya, kimyəvi və bioloji müdafiəsinin təmin edilməsi sahəsində müvafiq tədbirlər həyata keçirmək;

8.43. Mülki müdafiə qoşunlarının tabeliyində olan qurumların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində Nazirliyə təkliflər vermək və öz səlahiyyətləri daxilində tədbirlər görmək;

8.44. sərgilərin, konfransların, müxtəlif təlim və idman tədbirlərinin keçirilməsində iştirak etmək;

8.45. öz səlahiyyətlərini yerinə yetirərkən insan və vətəndaş hüquqları və azadlıqlarını təmin etmək;

8.46. Mülki müdafiə qoşunlarının fəaliyyəti ilə bağlı ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

8.47. fövqəladə hallar və mülki müdafiə sahəsində beynəlxalq əməkdaşlıqda Nazirlik adından iştirak etmək;

8.48. Mülki müdafiə qoşunlarının fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. MÜLKİ MÜDAFİƏ QOŞUNLARININ HÜQUQLARI

9. Mülki müdafiə qoşunları öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. mülki müdafiə, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı normativ hüquqi aktların layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

9.2. Mülki müdafiə qoşunlarının bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun struktur bölmələrini yaratmaq, yenidən təşkil

və ya ləğv etmək barədə Nazirliyə təkliflər vermək;

9.3. icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən mülki müdafiə tədbirlərinin həyata keçirilməsi hazırlığını müəyyən olunmuş qaydada yoxlamaq;

9.4. sərəncamında olan maliyyə vəsaitlərini qanunvericiliklə müəyyən olunmuş qaydada idarə etmək;

9.5. qanunvericiliklə müəyyən edilmiş qaydada öz ehtiyacları üçün silah, sursat, rabitə vasitələri, xüsusi texnika və digər texniki vasitələrin alınması barədə Nazirliyə təkliflər vermək, onların saxlanılması və mühafizəsini təmin etmək;

9.6. Mülki müdafiə qoşunlarının hərbi qulluqçularına qanunvericiliklə müəyyən edilmiş qaydada xidməti silah və xüsusi vasitələr vermək;

9.7. Mülki müdafiə qoşunlarının səlahiyyətlərinə aid olan məsələlər barədə lazım olan məlumatları və sənədləri əldə etmək üçün icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) tələb etmək;

9.8. müəyyən olunmuş qaydada icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının rəhbər, komandir-rəis heyətini, vəzifəli şəxsləri, o cümlədən yaranmış şəraitə uyğun mülki müdafiə qüvvə və vasitələrini mülki müdafiə məsələlərinin həllinə, həmçinin təlimlərə, məşqlərə, təşkilati-metodik toplanışlara və digər mülki müdafiə tədbirlərinə cəlb etmək;

9.9. mülki müdafiə üzrə ədəbiyyatın və mütəmadi dövri nəşrlərin buraxılmasını və təbliğini təşkil etmək;

9.10. Mülki müdafiə qoşunlarının hərbi qulluqçularının, digər işçilərinin və onların ailə üzvlərinin, habelə pensiyaçılarının sağlamlığının qorunması istiqamətində qanunvericiliklə müəyyən edilmiş qaydada kompleks profilaktika, müalicə, sanatoriya-kurort və digər sosial müdafiə tədbirlərinin həyata keçirilməsi barədə Nazirliyə təkliflər vermək; **xii[12]**

9.11. Mülki müdafiə qoşunlarının şəxsi heyətinin ehtiyacları üçün mənzil

tikintisinin aparılması, onların təmiri ilə bağlı Nazirliyə təkliflər vermək;

9.12. öz səlahiyyətləri daxilində beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq orqanları (qurumları) ilə əməkdaşlıq etmək və təcrübə mübadiləsi aparmaq;

9.13. fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xarici ölkələrə humanitar yardım göstərilməsi və eləcə də xarici ölkələrdən humanitar yardım alınması barədə həmin ölkələrin müvafiq qurumları, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə öz səlahiyyətləri daxilində əməkdaşlıq etmək;

9.14. xüsusi siqnallar və rabitə vasitələri ilə təchiz edilmiş, habelə müəyyən olunmuş qaydada təsdiq edilmiş tanınma nişanı və rəngi olan xüsusi nəqliyyat vasitələrinə malik olmaq;

9.15. Mülki müdafiə qoşunlarının fəaliyyət dairəsinə uyğun sahələr üzrə mütəxəssislərin hazırlanması və kadrların əlavə təhsili üçün tədbirlər görmək;

9.16. Mülki müdafiə sahəsində normativ hüquqi aktların tələblərini pozan şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb olunması barədə Nazirliyə təkliflər vermək;

9.17. Mülki müdafiə qoşunlarının fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. MÜLKİ MÜDAFİƏ QOŞUNLARININ FƏALİYYƏTİNİN TƏŞKİLİ

10. Mülki müdafiə qoşunlarının komandanlığı və strukturuna daxil olan qurumlar vahid sistem təşkil edir.

11. Mülki müdafiə qoşunları öz fəaliyyətini strukturuna daxil olan komandanlıq, xidmət, müstəqil şöbələr, birləşmə, hərbi hissə və bölmələr, habelə tabeliyində olan digər qurumlar vasitəsilə həyata keçirir.

12. Mülki müdafiə qoşunlarının şəxsi heyətlə komplektləşdirilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

13. Mülki müdafiə qoşunlarının hərbi qulluqçularının (o cümlədən sıravi heyətinin) Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən say həddi daxilində komandanlığının və tabeliyində olan bölmələrin ştat cədvəli və ştat sayı, Nazirliyin büdcədən maliyyələşdirilən işçilərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən say həddi daxilində büdcədən maliyyələşdirilən mülki işçilərinin sayı, büdcə vəsaitləri üzrə xərclər smetası Nazirlik tərəfindən təsdiq edilir.

14. Mülki müdafiə qoşunlarının hərbi qulluqçuları Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən hərbi qulluğa qəbul və vəzifəyə təyin edilir, hərbi qulluqdan və vəzifədən azad edilir.

15. mülki şəxslərin Mülki müdafiə qoşunlarında vəzifəyə təyin və vəzifədən azad edilməsi qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən həyata keçirilir.

16. Mülki müdafiə qoşunlarının maliyyələşdirilməsi dövlət büdcəsində Nazirliyin saxlanılması üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

17. Mülki müdafiə qoşunlarının hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləği Azərbaycan Respublikasının Prezidenti tərəfindən, pul təminatının digər növlərinin ödənilməsi qaydaları isə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. **xiii[13]**

18. Mülki müdafiə qoşunlarında qulluq etmiş hərbi qulluqçuların və onların ailə üzvlərinin pensiya təminatı qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

19. Mülki müdafiə qoşunları komandanlığının mülki işçilərinin əmək ödənişi Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

20. Mülki müdafiə qoşunlarının fəaliyyətinə Mülki müdafiə qoşunlarının komandanı (bundan sonra - Komandan) rəhbərlik edir.

21. Komandan Azərbaycan Respublikası fövqəladə hallar nazirinin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

22. Mülki müdafiə qoşunlarına həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsinə görə Komandan şəxsən məsuliyyət daşıyır.

23. Komandanın Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir birinci müavini və bir müavini vardır.

24. Komandan:

24.1. Mülki müdafiə qoşunlarının fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

24.2. öz müavinləri arasında vəzifə bölgüsü aparır, onların məsuliyyət dairəsini və səlahiyyətlərini müəyyən edir;

24.3. Mülki müdafiə qoşunlarının maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir;

24.4. Mülki müdafiə qoşunlarının fəaliyyət sahəsinə aid olan məsələlərlə bağlı normativ hüquqi aktların layihələrinin hazırlanmasını təşkil edir və baxılması üçün Nazirliyə təqdim edir;

24.5. Mülki müdafiə qoşunlarının tabeliyində struktur bölmələrinin yaradılması, yenidən təşkili və ləğv edilməsi barədə Nazirliyə təkliflər verir;

24.6. Mülki müdafiə qoşunlarının fəaliyyəti ilə bağlı öz səlahiyyətləri daxilində əmrlər və göstərişlər verir, onların icrasına nəzarəti təşkil edir;

24.7. Mülki müdafiə qoşunlarının qurulması və inkişafı konsepsiyasının və planının hazırlanması ilə əlaqədar Nazirliyə təkliflər verir;

24.8. qanunvericiliklə müəyyən edilmiş qaydada Mülki müdafiə qoşunları üzrə sıravi, kiçik və böyük rəis heyəti vəzifələrinin siyahısı, bu vəzifələrə uyğun hərbi rütbə hədlərinin müəyyən edilməsi barədə Nazirliyə təkliflər verir;

24.9. qanunvericiliyə əsasən Mülki müdafiə qoşunlarının hərbi qulluqçularına ilk zabit rütbəsi və polkovnik rütbəsi daxil olmaqla, hərbi rütbələrin, o cümlədən vaxtından əvvəl və növbədənkənar hərbi rütbələrin verilməsi barədə Azərbaycan Respublikasının fövqəladə hallar naziri qarşısında vəsatət qaldırır;

24.10. qanunvericiliyə müvafiq qaydada Mülki müdafiə qoşunlarının şəxsi heyətinin attestasiyasının keçirilməsini təşkil edir;

24.11. Mülki müdafiə qoşunlarının hərbi qulluqçularının və mülki işçilərinin Azərbaycan Respublikasının dövlət mükafatlarına təqdim olunması ilə bağlı Nazirliyə təkliflər verir;

24.12. Mülki müdafiə qoşunlarının geyim forması, fərqlənmə nişanları, bayrağı və digər rəmzləri barədə Nazirliyə təkliflər verir;

24.13. Mülki müdafiə qoşunlarının səlahiyyətlərinə aid edilən məsələlər üzrə növbəti il üçün dövlət büdcəsinin layihəsində Nazirliyin saxlanılması xərclərinin formalaşdırılması ilə bağlı təkliflər verir, fəaliyyəti ilə əlaqədar olaraq qanunvericiliklə müəyyən edilmiş digər mənbələr hesabına Nazirliyin büdcədənkənar vəsaitlərin yaradılmasında iştirak edir və Nazirliyin təsdiq etdiyi gəlirlər və xərclər smetasına uyğun olaraq həmin vəsaitlərdən təyinatı üzrə istifadə olunmasını təmin edir;

24.14. Mülki müdafiə qoşunlarının hərbi qulluqçuları və mülki işçiləri barədə qanunvericiliklə nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi barədə Nazirliyə təqdimat verir;

24.15. Mülki müdafiə qoşunlarının hərbi qulluqçuları haqqında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrinin müəyyən etdiyi digər hüquqları həyata keçirir;

24.16. Mülki müdafiə qoşunlarının hərbi şəhərciklərinin, axtarış-xilasetmə, qəza-xilasetmə hissələri şəhərciklərinin tikintisi və inkişafı üzrə baş planların, mülki müdafiə qoşunlarının tikinti obyektlərinin layihələrinin hazırlanmasında iştirak edir;

24.17. qanunvericiliklə müəyyən edilmiş digər hüquqlardan istifadə edir.

25. Mülki müdafiə qoşunlarının səlahiyyətlərinə aid olan mühüm problemlərin həlli üçün ictimai əsaslarla fəaliyyət göstərən hərbi-metodiki Şura yaradıla bilər. Şuranın Əsasnaməsi və onun tərkibi Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən təsdiq edilir.

Azərbaycan Respublikası Prezidentinin

2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanı ilə

TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Hərbiləşdirilmiş Xüsusi Mühafizə Xidməti haqqında**

**Ə S A S N A M Ə**

**I. ÜMUMİ MÜDDƏALAR**

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Hərbiləşdirilmiş Xüsusi Mühafizə Xidməti (bundan sonra - Xidmət) fövqəladə hallar baş verdikdə çevik reaksiya verilməsini, təbii, texnogen, yanğın və terror təhlükələrinə məruz qalan strateji əhəmiyyətli müəssisələrin, qurğuların və digər obyektlərin mühafizəsini təşkil edən və öz səlahiyyətləri daxilində strateji obyektlərin və qurğuların mühafizəsini həyata keçirən qurumdur.

2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrini, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (bundan sonra - Nazirlik) əmr və göstərişlərini rəhbər tutur.

3. Xidmət öz fəaliyyətini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

4. Xidmət müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, Nazirliyin və Xidmətin adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara, bayraq və rəmzlərə malikdir.

5. Xidmətin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və Azərbaycan Respublikasının qanunvericiliyinə (bundan sonra- qanunvericilik) zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

6. Xidmətin struktur bölmələri Bakı şəhərində və ölkənin regionlarında yerləşir.

## II. XİDMƏTİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

7. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

7.1. əhalinin və ərazilərin fövqəladə hallardan qorunması sahəsində dövlət siyasətinin və tənzimlənməsinin işlənib hazırlanmasında təkliflər verir və həyata keçirilməsində iştirak edir;

7.2. əhalinin və ərazilərin fövqəladə hallardan qorunması sahəsində, eləcə də fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə Vahid Dövlət Sistemi daxilində icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi istiqamətində Nazirliyə təkliflər verir;

7.3. sülh və müharibə dövrünün fövqəladə hallarında zədələnmə ocaqlarında qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması və humanitar yardımların öz səlahiyyətləri daxilində mühafizə tədbirlərini təmin edir;

7.4. Xidmətin səlahiyyətlərinə aid edilən məsələlər üzrə normativ tənzimləməni və nəzarət funksiyalarını həyata keçirir;

7.5. fövqəladə hallar və terror təhlükələrinə məruz qalan strateji əhəmiyyətli müəssisələrin, qurğuların və digər obyektlərin mühafizəsinin təşkil edilməsində iştirak edir;

7.6. Xidmət tabeliyində olan hərbiləşdirilmiş qüvvələrin sülh və müharibə dövrünün fövqəladə hallarında mühafizə tədbirlərinin yerinə yetirilməsi sahəsində hazırlığını təmin edir;

7.7. Xidmətin fəaliyyət dairəsinə aid edilən sahələrin inkişafını təmin edir;

7.8. Xidmət qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə də fəaliyyət göstərir.

## III. XİDMƏTİN VƏZİFƏLƏRİ

8. Xidmət bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

8.1. Xidmət aşağıdakı məsələlərlə bağlı təkliflərini Nazirliyə təqdim edir:

8.1.1. əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi barədə;

8.1.2. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində Azərbaycan Respublikasının Milli Konsepsiyasının layihəsi ilə bağlı;

8.1.3. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələrin və qurumların birgə fəaliyyət göstərməsi barədə;

8.1.4. əhalinin və ərazilərin fövqəladə hallar barədə xəbərdar edilməsi üzrə monitorinq, proqnozlaşdırma və digər qabaqlayıcı tədbirlər, fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı;

8.1.5. xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması zamanı mühafizə tədbirlərinin həyata keçirilməsi sahəsində təlimlərin və məşqlərin hazırlanması ilə bağlı;

8.1.6 müdafiə məqsədləri üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tətbiq olunması Planının, Səfərbərlik Planının və ölkə ərazisinin operativ istehkamlaşdırılması üzrə dövlət proqramının hazırlanması ilə bağlı;

8.1.7. Xidmətin fəaliyyəti ilə bağlı normativ hüquqi aktların hazırlanması üzrə təkliflərini;

8.2. fövqəladə hallar və terror təhlükələri zamanı və ya belə hallar baş verdikdə, strateji əhəmiyyətli neft və qaz hasilatı və emalı müəssisələrinin, terminalların, magistral boru kəmərlərinin, içməli su mənbələrinin, elektrik stansiyalarının, hidrodinamik qurğuların və ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyət kəsb edən digər müəssisələrin mühafizəsini müvafiq dövlət orqanları ilə birlikdə təmin etmək;

8.3. fövqəladə hallar baş verən yerlərdən əhalinin evakuasiyasında (təxliyyəsində) və xilasetmə işlərinin həyata keçirilməsində iştirak etmək, həmçinin müvafiq dövlət orqanları ilə birlikdə fövqəladə vəziyyət zonasında qalmış əmlakın mühafizəsini və ictimai asayişi təmin etmək;

8.4. müvafiq dövlət orqanları ilə birlikdə minalanmış ərazilərin minalardan təmizlənməsində, eyni zamanda mühafizə tədbirlərinin görülməsində iştirak etmək;

8.5. humanitar yardımların daşınması zamanı mühafizə tədbirlərini təmin etmək;

8.6. ölkə ərazisində hərbi əməliyyatlar nəticəsində baş vermiş irimiqyaslı qəzalar zamanı hadisə rayonunda müvafiq dövlət orqanları ilə birlikdə mühafizə tədbirlərinin görülməsində iştirak etmək;

8.7. Xidmətin təlim və məşqlərinin planlaşdırılmasına, onların hazırlanması və həyata keçirilməsinə nəzarət etmək və qüvvələrinin təyinatı üzrə tətbiq edilməsini təmin etmək;

8.8. tabeliyində olan hərbiləşdirilmiş xüsusi mühafizə qüvvələrində Xidmətin təhlükəsizliyini təmin etmək;

8.9. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı Xidmət üzrə mühafizə tədbirlərinin illik planını hazırlamaq və təsdiq edilməsi üçün Nazirliyə təqdim etmək;

8.10. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı Azərbaycan Respublikasının Milli Konsepsiyasının və digər proqramların həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

8.11. sülh və müharibə dövrünün fövqəladə hallarında Xidmətin qüvvələrinin maddi-texniki və insan resurslarının səfərbər edilməsi imkanlarının cari və perspektiv planlaşdırılması barədə Nazirliyə təkliflər vermək;

8.12. fövqəladə halların proqnozlaşdırılması, qabaqlayıcı tədbirlərin görülməsi, əhalinin operativ məlumatlandırılması və digər kompleks tədbirlərin həyata keçirilməsi, həmçinin Xidmətin fəaliyyət sahəsi üzrə informasiyanın toplanması və sistemləşdirilməsi məqsədilə xüsusi təyinatlı elektron informasiya sisteminin yaradılmasında iştirak etmək;

8.13. fövqəladə halların qarşısının alınmasını və nəticələrinin aradan qaldırılmasını operativ surətdə təşkil etmək məqsədilə Azərbaycan Respublikasının bütün ərazisini əhatə edən "Fövqəladə Halların İdarə Olunmasının Coğrafi İnformasiya Sistemi"nin (GİS) yaradılmasında iştirak etmək;

8.14. Xidmətə məxsus xidməti və döyüş silahlarının dövriyyəsinə nəzarət etmək və döyüş sursatının saxlanması qaydalarına əməl olunmasını təmin etmək;

8.15. tabeliyində olan hərbi qulluqçuların və fövqəladə halların nəticələrinin aradan qaldırılmasında iştirak edən digər şəxslərin həyatının icbari sığortalanması ilə bağlı tədbirlər görmək;

8.16. Xidmətin fəaliyyət sahələri üzrə kadrların peşə və xüsusi hazırlığını və onların əlavə təhsilini təmin etmək; **xiv[14]**

8.17. beynəlxalq təcrübə nəzərə alınmaqla, fövqəladə halların nəticələrinin aradan qaldırılması zamanı mühafizə tədbirlərinin həyata keçirilməsi sahəsində müasir texnika və texnologiyaların tətbiq edilməsi ilə bağlı tədbirlər görmək;

8.18. Xidmət üçün ayrılan büdcə və digər maliyyə vəsaitlərinin uçotunu aparmaq və onlardan səmərəli istifadə olunmasına nəzarət etmək;

8.19. Xidmətin fəaliyyəti ilə bağlı dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün qanunvericiliyə uyğun zəruri mühafizə və təhlükəsizlik tədbirləri həyata keçirmək;

8.20. tabeliyində olan qurumların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində Nazirliyə təkliflər vermək və öz səlahiyyətləri daxilində tədbirlər görmək;

8.21. Xidmətin qüvvələrinin hazırlığını və hazırlıq vəziyyətində saxlanılmasını, gündəlik fəaliyyətinin idarə olunmasını və təyinatına görə tətbiq edilməsini təmin etmək, həmçinin şəxsi heyət və texnika ilə komplektləşdirilməsi barədə Nazirliyə təkliflər vermək;

8.22. sərgilərin, konfransların, müxtəlif təlim və idman tədbirlərinin keçirilməsində iştirak etmək;

8.23. öz səlahiyyətlərini yerinə yetirərkən, insan və vətəndaş hüquqları və azadlıqlarını təmin etmək;

8.24. Xidmətin fəaliyyəti ilə bağlı ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

8.25. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. XİDMƏTİN HÜQUQLARI

9. Xidmət öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək;

9.2. Xidmətin bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun struktur bölmələrini yaratmaq, yenidən təşkil etmək və ya ləğv etmək barədə Nazirliyə təkliflər vermək;

9.3. fövqəladə hallar və terror təhlükələri zamanı və ya belə hallar baş verdikdə, strateji əhəmiyyətli müəssisələrin, qurğuların və digər obyektlərin mühafizəsinin təmin edilməsində iştirak etmək;

9.4. sərəncamında olan maliyyə vəsaitlərini qanunvericiliklə müəyyən olunmuş qaydada idarə etmək;

9.5. qanunvericiliklə müəyyən edilmiş qaydada öz ehtiyacları üçün silah, sursat, rabitə vasitələri, xüsusi texnika və digər texniki vasitələrin alınması barədə Nazirliyə təkliflər vermək, onların saxlanılmasını və mühafizəsini təmin etmək;

9.6. Xidmətin hərbi qulluqçularına qanunvericiliklə müəyyən edilmiş qaydada xidməti silah və xüsusi vasitələr vermək;

9.7. Xidmətin səlahiyyətlərinə aid edilən məsələlər barədə lazım olan məlumatları və sənədləri əldə etmək üçün strateji obyektlərin rəhbərlərinə, eyni zamanda icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) tələb etmək;

9.8. Xidmətin hərbi qulluqçularının, mülki işçilərinin, pensiyaçılarının, onların ailə üzvlərinin sağlamlığının qorunması istiqamətində kompleks profilaktika, müalicə, sanatoriya-kurort və digər sosial müdafiə tədbirlərinin həyata keçirilməsi barədə Nazirliyə təkliflər vermək;

9.9. öz səlahiyyətləri daxilində beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq orqanları (qurumları) ilə əməkdaşlıq etmək və təcrübə mübadiləsi aparmaq;

9.10. xüsusi siqnallar və rabitə vasitələri ilə təchiz edilmiş, tanınma nişanı və rəngi olan xüsusi nəqliyyat vasitələrinə malik olmaq;

9.11. Xidmətin fəaliyyət dairəsinə uyğun sahələr üzrə mütəxəssislərin hazırlanması və kadrların əlavə təhsili işini təşkil etmək;

9.12. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## V. XİDMƏTİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

10. Xidmətin aparatı və tabeliyində olan struktur bölmələri Xidmətin vahid sistemini təşkil edir.

11. Xidmət öz fəaliyyətini strukturuna daxil olan bölmələr vasitəsilə həyata keçirir.

12. Xidmətin hərbi qulluqçuları vəzifələrinə uyğun olaraq qanunvericiliklə müəyyən edilmiş qaydada hərbi qulluq keçirlər, hərbi qulluğun qaydaları və şərtləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

13. Xidmətdə qulluq etmiş hərbi qulluqçuların və onların ailə üzvlərinin pensiya təminatı qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

14. Xidmətin aparatına və strukturuna daxil olan bölmələrdə hərbi qulluğa qəbul və vəzifəyə təyin etmə, hərbi qulluqdan və vəzifədən azad etmə Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən həyata keçirilir.

Mülki şəxslərin Xidmətdə vəzifəyə təyin və vəzifədən azad edilməsi qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən həyata keçirilir.

15. Xidmətin Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən büdcədən maliyyələşdirilən işçilərinin say həddi daxilində strukturu, aparatının və tabeliyində olan qurumların ştat cədvəli, büdcə vəsaitləri üzrə xərclər smetası Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən təsdiq edilir.

16. Xidmətin hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləği və pul təminatının digər növləri Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləğinə və pul təminatının digər növlərinə uyğun olaraq, mülki işçilərinin əmək ödənişi isə qanunvericiliyə uyğun olaraq müəyyən edilir.

17. Xidmətin aparatının və büdcədən maliyyələşdirilən struktur bölmələrinin maliyyələşdirilməsi dövlət büdcəsində Nazirliyin saxlanılması üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

18. Xidmətin fəaliyyətinə Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Xidmətin rəisi (bundan sonra - rəis) rəhbərlik edir.

19. Xidmətə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə və hüquqlarının həyata keçirilməsinə görə rəis şəxsən məsuliyyət daşıyır.

20. Rəisin Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır;

21. Rəis:

21.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

21.2. öz müavinləri arasında vəzifə bölgüsü aparır, onların məsuliyyət dairəsini və səlahiyyətlərini müəyyən edir;

21.3. Xidmətin maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir;

21.4. Xidmətin fəaliyyət sahəsinə aid olan məsələlərlə bağlı normativ hüquqi aktların layihələrinin hazırlanmasını təşkil edir və Nazirliyə təqdim edir;

21.5. öz səlahiyyətləri daxilində Xidmətin hərbi qulluqçularının və mülki işçilərinin vəzifəyə təyin edilməsi, hərbi qulluq üzrə yerdəyişməsi və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikasının fövqəladə hallar nazirinə təqdimat verir;

21.6. Xidmətin tabeliyində olan struktur bölmələrinin yaradılması, yenidən təşkili və ləğv edilməsi barədə Nazirliyə təkliflər verir;

21.7. Xidmət üzrə icrası məcburi olan əmrlər və göstərişlər verir və onların icrasına nəzarəti təşkil edir;

21.8. qanunvericiliklə müəyyən edilmiş qaydada Xidmət üzrə vəzifələrə uyğun hərbi rütbə hədlərinin müəyyən edilməsi barədə Nazirliyə təkliflər verir;

21.9. Xidmətin əməkdaşlarının sıravi, kiçik, orta və böyük rəis heyətlərinə polkovnik rütbəsi daxil olmaqla hərbi rütbələrin, o cümlədən vaxtından əvvəl və növbədənkənar hərbi rütbələrin verilməsi və rütbələrdən məhrum edilməsi barədə Azərbaycan Respublikasının fövqəladə hallar nazirinə təqdimat verir;

21.10. Xidmətin hərbi qulluqçularının və mülki işçilərinin Azərbaycan Respublikasının dövlət mükafatlarına təqdim olunması barədə Nazirliyə təqdimat verir;

21.11. Xidmət hərbi qulluqçularının geyim forması, fərqlənmə nişanları, Xidmətin bayrağı və digər rəmzləri barədə Nazirliyə təkliflər verir;

21.12. Xidmətin səlahiyyətlərinə aid edilən məsələlər üzrə növbəti il üçün Nazirliyin saxlanılması xərclərinin formalaşdırılması ilə bağlı təkliflər verir, fəaliyyəti ilə əlaqədar olaraq qanunvericiliklə müəyyən edilmiş mənbələr hesabına Nazirliyin büdcədənkənar vəsaitlərinin yaradılmasında iştirak edir və Nazirliyin təsdiq etdiyi gəlirlər və xərclər smetasına uyğun olaraq həmin vəsaitlərdən təyinatı üzrə istifadə olunmasını təmin edir;

21.13. Xidmətin sisteminə daxil olan strukturların əməkdaşlarına qanunvericilikdə nəzərdə tutulmuş həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi barədə Nazirliyə təqdimat verir;

21.14. Xidmətin struktur bölmələrinin əsasnamələrinin layihələrini hazırlayır və təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

21.15. Xidmətin fəaliyyəti ilə əlaqədar beynəlxalq əməkdaşlıqda öz səlahiyyətləri daxilində Nazirlik adından iştirak edir;

21.16. qanunvericiliklə müəyyən edilmiş digər hüquqlardan istifadə edir.

Azərbaycan Respublikası Prezidentinin

2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanı ilə

TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyi haqqında

## Ə S A S N A M Ə

### I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyi (bundan sonra - Müfəttişlik) qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının daxili dəniz və ərazi sularında, çaylarda, su anbarlarında, digər sututarlarda (bundan sonra - sututarlarda) kiçik həcmli gəmilərin təhlükəsiz hərəkətinə dövlət nəzarətini, habelə gəmilərin və onların dayanacağı üçün bazaların, qurğuların, yanalma körpülərinin və keçidlərin (bundan sonra - bazalar) təhlükəsiz istismarına texniki nəzarəti həyata keçirən icra hakimiyyəti orqanıdır.

2. Müfəttişlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (bundan sonra - Nazirlik) əmr və göstərişlərini rəhbər tutur.

3. Müfəttişlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

4. Müfəttişlik müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir. Müfəttişlik Nazirliyin müvafiq qaydada təsdiq olunmuş bayrağından və rəmzlərindən istifadə edir.

5. Müfəttişliyin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

6. Müfəttişlik özünə məxsus xidməti gəmi dayanacağı bazasına, patrul xidmətini təşkil etmək üçün dispetçer məntəqələrinə və ölkənin su hövzələrində istismar olunan kiçik həcmli gəmilərin hərəkətinə operativ nəzarəti təşkil etmək üçün mərkəzi radio-rabitə stansiyasına malikdir.

7. Müfəttişlik Bakı şəhərində yerləşir.

## II. MÜFƏTTİŞLİYİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

8. Müfəttişliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

8.1. mülkiyyət formasından asılı olmayaraq onlara məxsus kiçik həcmli gəmilərin təhlükəsiz hərəkətinə öz səlahiyyətləri daxilində dövlət nəzarətini və istismarına texniki nəzarəti təşkil edir və həyata keçirir;

8.2. kiçik həcmli gəmilərin dayanacağı üçün istifadə olunan bazaların istismarının təhlükəsizliyinə nəzarət edir;

8.3. kiçik həcmli gəmilərin və dayanacaq bazalarının istismarının təhlükəsizliyinin təmin olunması sahəsində Nazirliyin tabeliyində olan müvafiq qurum kimi dövlət siyasətinin işlənib hazırlanmasında və tənzimlənməsində iştirak edir və bu siyasətin həyata keçirilməsinə nəzarət edir;

8.4. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. MÜFƏTTİŞLİYİN VƏZİFƏLƏRİ

9. Müfəttişlik aşağıdakı vəzifələri yerinə yetirir:

9.1. fəaliyyət sahəsi ilə bağlı normativ hüquqi aktların layihələrini hazırlamaq və Nazirliyə təqdim etmək;

9.2. kiçik həcmli gəmilərin və onların dayanacaq bazalarının istifadəsinə qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət və texniki nəzarəti həyata keçirmək;

9.3. səlahiyyətləri daxilində kiçik həcmli gəmilərin bazalarında insanların təhlükəsizliyi ilə bağlı tələblərə əməl olunmasına nəzarət etmək;

9.4. kiçik həcmli gəmilərin təsnifat qaydalarının işlənib hazırlanmasında iştirak etmək;

9.5. kiçik həcmli gəmilərdən, onların bazalarından istifadə olunması qaydalarını tənzimləyən normativ hüquqi aktlara əməl olunmasına nəzarəti təşkil etmək;

9.6. kiçik həcmli gəmilərin müəyyən edilmiş qaydada təsnifatını, dövlət qeydiyyatını və uçotunu, ilkin və illik texniki müayinəsini və baxışını, onlara dövlət (bort) nömrəsinin, qeydə alınmış gəmilərə gəmi biletinin və digər sənədlərin verilməsini həyata keçirmək;

9.7. kiçik həcmli gəmilərdən istifadə olunması qaydalarının və onların praktiki idarə edilməsi vərdişlərinin öyrədilməsi üçün proqramlar işləyib hazırlamaq və Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası ilə razılaşdırmaq, kiçik həcmli gəmilərin idarə edilməsi hüququnun verilməsi üçün imtahanlar və gəmi sürücülərinin attestasiyasını keçirmək, kiçik həcmli gəmiləri idarəetmə hüququ verən vəsiqələr vermək; **xv[15]**

9.8. kiçik həcmli gəmilərin reyestrini, kiçik həcmli gəmiləri idarə etmək hüququ verən sürücülük vəsiqələrinin, kiçik həcmli gəmilərin və gəmi sürücülərinin üzməyə buraxılması üçün zəruri olan qeydiyyat və başqa sənədlərin uçotunu aparmaq;

9.9. konstruksiyasından və gücündən asılı olaraq gəminin sərnişin tutumunu, yükgötürümünü, mühərriklərin maksimal gücünü və sayını, yelkənlər üçün yol verilən sahəni, üzmə ərazisini, gəminin üzməyi bacaracağı dalğa hündürlüyünü, gəminin sualtı hissəsini və minimal suüstü bortunu, xilasetmə və yanğından qoruma vasitələri ilə, siqnal işıqları, naviqasiya və digər avadanlıqlarla təchizatı ilə bağlı məcburi şərtləri, normaları və texniki tələbləri müəyyən etmək;

9.10. kiçik həcmli gəmilərdən və onların dayanacaq bazalarından istifadə qaydalarına əməl olunmasına nəzarət etmək, bu qaydaların, üzmə təhlükəsizliyinə və ətraf mühitin mühafizəsinə aid digər norma və tələblərin pozulmasını aşkar etmək və qarşısını almaq;

9.11. kiçik həcmli gəmilərlə bağlı qəza və hadisələrin, qəza nəticəsində sularda insanlarla əlaqədar baş verən bədbəxt hadisələrin uçotunu aparmaq, onların baş vermə səbəblərini və şəraitini təhlil etmək, həmin səbəb və şəraitin aradan qaldırılması üçün tədbirlər görmək;

9.12. bazaların uçotunu aparmaq, onları illik texniki baxışdan keçirmək, bazaların istismarına icazə vermək və ya təhlükəsizlik norma və qaydaları pozulduğu halda bu şərtlər təmin edilənə kimi istismarına qadağa qoymaq;

9.13. bazalarda gəmilərin yerləşdirilmə normalarını, istismar təhlükəsizliyi üçün şərtləri və texniki tələbləri müəyyən etmək;

9.14. kiçik həcmli gəmilərin dayanacaq bazalarının layihələrinə rəy vermək;

9.15. kiçik həcmli gəmi sürücülərinin hazırlığı üzrə kursları və mərkəzləri uçota almaq, kiçik həcmli gəmilər üzərində qoyulmuş həbs və girovların qeydiyyatını aparmaq;

9.16. kiçik həcmli gəmilərin üzməsinin təhlükəsizlik səviyyəsinin qaldırılması üzrə tövsiyələr hazırlamaq, onları müəyyən olunmuş qaydada dövlət orqanlarına və ictimai təşkilatlara təqdim etmək, onların həyata keçirilməsinə yardım etmək;

9.17. kiçik həcmli gəmilərin hərəkətinin təhlükəsizliyinin təmin olunması üçün gəmi sahibləri tərəfindən tədbirlər görülməsinə nəzarət etmək;

9.18. kiçik həcmli gəmilərin mühərriklərinin standartları, texniki şərtləri, layihə və konstruksiyaları üzrə onların istismar təhlükəsizliyinin təminatı ilə bağlı rəy vermək, yeni gəmi texnikası nümunələrinin sınaqlarında və qəbulunda iştirak etmək;

9.19. kiçik həcmli gəmilərin istismar şərtlərini, onların konstruksiyalarının avadanlıq və mexanizmlərinin xüsusiyyətlərini və nöqsanlarını öyrənmək və gəmilərin, avadanlıq və mexanizmlərin etibarlılığının yüksəldilməsi üzrə təkliflər hazırlamaq;

9.20. kiçik həcmli gəmilərin qeydiyyatı və uçotu qaydalarının və həmin gəmilərdən və onların dayanması üçün bazalardan istifadə qaydalarının pozulması faktlarının təhlilini və qeydiyyatını aparmaq;

9.21. kiçik həcmli gəmilərin hərəkətinin təhlükəsizliyinin təmin olunması məqsədilə mövcud beynəlxalq və daxili qaydaları əsas tutaraq vahid qaydalar işləyib hazırlamaq və müvafiq təşkilatlarla razılaşdırmaq;

9.22. kiçik həcmli gəmilərin istismarı ilə bağlı qanunvericiliklə müəyyən olunmuş haqların gəmi sahibləri tərəfindən ödənilməsinə nəzarət etmək;

9.23. müfəttişliyin gördüyü işlər və göstərdiyi xidmətlər üzrə tariflərin layihələrini işləyib hazırlamaq və müəyyən edilmiş qaydada Nazirliyə təqdim etmək;

9.24. müəyyən olunmuş qaydalar və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələbləri üzrə kiçik həcmli gəmilərin ətraf mühitə və atmosferə atdığı zərərli (çirkləndirici) maddələrin texniki normativlərə uyğunluğunun vaxtaşırı yoxlanılmasını həyata keçirmək;

9.25. kiçik həcmli gəmilərin istismarı zamanı qəzaların qarşısını almaq, insanların su obyektlərində təhlükəsizliyini təmin etmək məqsədilə əhali arasında maarifləndirmə işi aparmaq;

9.26. inzibati xətalar haqqında protokol tərtib etmək, inzibati xətalara yol vermiş şəxslərə qarşı öz səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən edilmiş qaydada inzibati tənbeh tətbiq etmək;

9.27. müfəttişliyin işçilərinin peşə fəaliyyəti istiqamətlərinə uyğun olaraq hazırlığını və əlavə təhsilini həyata keçirmək; **xvi[16]**

9.28. yoxlamaların və xüsusi baxışdan keçirmənin həcmlərini müəyyən edən texniki tələbləri və normativləri, gəmilərin istismarının təhlükəsizliyi təminatına aid digər normativ-texniki sənədlər işləyib hazırlamaq və müvafiq təşkilatlarla razılaşdıraraq təsdiq etmək, gəmi sahibləri tərəfindən bu tələblərə və normativlərə əməl olunmasına nəzarət etmək;

9.29. sututarlarda fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması tədbirlərinin həyata keçirilməsində iştirak etmək;

9.30. ölkənin su hövzələrində istismar edilən kiçik həcmli gəmilərin hərəkətinə operativ nəzarəti təşkil etmək üçün mərkəzi radio-rabitə stansiyasını yaratmaq;

9.31. istismar müddəti başa çatmış köhnə və yararsız gəmilərdə texniki baxış keçirilməsini dayandırmaq və istismarına qadağa qoymaq;

9.32. öz səlahiyyətləri daxilində kiçik həcmli gəmilərin öz təyinatı üzrə istismar olunmasına nəzarət etmək;

9.33. üzgüçülük təhlükəsizliyi və nəzarətində olan gəmilərdən düzgün istifadə olunması haqqında qanunvericiliyin izahı və təbliği üzrə iş aparmaq;

9.34. digər icra hakimiyyəti orqanlarının Müfəttişliyin fəaliyyət sahəsi ilə bağlı işlərini əlaqələndirmək;

9.35. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

9.36. Müfəttişliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. MÜFƏTTİŞLİYİN HÜQUQLARI

10. Müfəttişlik öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

10.1. fəaliyyət sahəsinə daxil olan məsələlərin tənzimlənməsi ilə bağlı təkliflər hazırlamaq və Nazirliyə təqdim etmək;

10.2. qanunvericiliklə müəyyən olunmuş hallarda və qaydada kiçik həcmli gəmilərin istismarına qadağa qoymaq və onları dayanacaqlara və uzunmüddətli saxlanma yerlərinə yerləşdirmək;

10.3. təhlükəsizlik və mühafizə qaydalarının tələblərinə cavab verməyən, gəmilərin hərəkətinə və üzməsinə təhlükə yaradan kiçik həcmli gəmilərin dayanacaq bazalarının istismarı və istifadəsini qadağan etmək;

10.4. zəruri hallarda kiçik həcmli gəmiləri saxlamaq, gəmi sürücülərinin kiçik həcmli gəmiləri idarə etmək hüququnu təsdiqləyən vəsiqələrini və gəmiyə verilmiş qeydiyyat sənədlərini yoxlamaq;

10.5. yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılmış şəkildə, yerli şəraiti nəzərə almaqla, kiçik həcmli gəmilərdən istifadə rejimlərinə mühərriklərin gücü və sayı, yelkənlərin sahəsi, üzmə ərazisi və gəmilərin hərəkət sürəti üzrə əlavə məhdudiyyətlər qoymaq;

10.6. istismar təhlükəsizliyinə, ətraf mühitin mühafizəsinə, çay və dəniz gəmiçiliyi təhlükəsizliyinə təminat verməyən kiçik həcmli gəmilərin istismar edilməsini qadağan etmək;

10.7. gəmi sürücülərinin gəmilərdən istifadə etmək biliklərini yoxlamaq, habelə səhhətinə görə gəmiləri idarə etməyə yararlığını müəyyən etmək üçün onları tibbi yoxlamaya göndərmək;

10.8. zəruri hallarda gəmilərdən istifadə qaydalarını pozmuş kiçik həcmli gəmiləri saxlamaq və aşkar olunmuş pozuntuların qarşısını almaq üçün tədbirlər görmək;

10.9. xarici ölkələrin diplomatik, konsulluq və digər nümayəndəliklərinə və beynəlxalq təşkilatlara məxsus gəmi və nəqliyyat vasitələri istisna olmaqla, hüquqi və fiziki şəxslərə məxsus gəmi və

nəqliyyat vasitələrindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda təcili tibbi yardıma ehtiyacı olan vətəndaşların tibb müəssisələrinə çatdırılması və ya qəza zamanı zədələnmiş kiçik həcmli gəmilərin daşınması üçün istifadə etmək;

10.10. Müfəttişliyin fəaliyyət istiqamətinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. MÜFƏTTİŞLİYİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

11. Müfəttişliyin aparatı və tabeliyində olan struktur bölmələri Müfəttişliyin vahid sistemini təşkil edir.

12. Müfəttişlik öz səlahiyyətlərini aparatının və tabeliyində olan struktur bölmələrinin vasitəsilə həyata keçirir.

13. Müfəttişliyin strukturu və Nazirliyin büdcədən maliyyələşdirilən işçilərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən say həddi daxilində büdcədən maliyyələşdirilən işçilərinin sayı, o cümlədən aparatının və tabeliyində olan struktur bölmələrinin xüsusi rütbəsi olan əməkdaşlarının sayı Nazirlik tərəfindən təsdiq edilir.

14. Nazirliyin saxlanılması xərcləri daxilində Müfəttişliyin xərclər smetası, müvafiq qanunvericiliklə müəyyən olunmuş digər mənbələr üzrə gəlirlər və xərclər smetası Nazirlik tərəfindən təsdiq edilir.

15. Müfəttişliyin aparatına və tabeliyində olan ərazi orqanlarına xüsusi rütbəsi olan əməkdaş vəzifələrinə xidmətə qəbul və vəzifəyə təyin etmə, xidmətdən və vəzifədən azad etmə Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən həyata keçirilir.

Müfəttişliyin mülki vəzifələrinə təyin etmə və vəzifədən azad edilmə Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən həyata keçirilir.

16. Müfəttişliyin xüsusi rütbəsi olan əməkdaşları qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq xüsusi xidmət keçirlər, xidmətkeçmənin qaydaları və şərtləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

17. Müfəttişlikdə xidmət etmiş əməkdaşların və onların ailə üzvlərinin pensiya təminatı qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

18. Müfəttişliyin xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə və xüsusi rütbəyə görə maaşlarının məbləği Azərbaycan Respublikasının Prezidenti tərəfindən, pul təminatının digər növlərinin ödənilməsi qaydaları isə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Müfəttişliyin büdcədən maliyyələşdirilən struktur bölmələrinin mülki işçiləri dövlət qulluqçusu statusuna malikdirlər. **xvii[17]**

19. Kiçik həcmli gəmilər üzrə Dövlət Müfəttişlərinin vəzifələrinin siyahısı və onların vəzifə öhdəlikləri, eləcə də ştatdankənar ictimai müfəttişlər haqqında əsasnamə və kiçik həcmli gəmilərin istismar qaydaları, onların qeydiyyatı, texniki baxışdan keçirilməsi və gəmi sürücülərinin attestasiyası qaydaları Nazirlik tərəfindən təsdiq edilir.

20. Müfəttişliyin aparatının və büdcədən maliyyələşdirilən struktur bölmələrinin maliyyələşdirilməsi dövlət büdcəsində Nazirliyin saxlanılması üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

21. Müfəttişliyin fəaliyyətinə Nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən, öz vəzifəsinə görə, eyni zamanda Azərbaycan Respublikasının kiçik həcmli gəmilər üzrə Baş Dövlət Müfəttişi hesab edilən rəis rəhbərlik edir. Rəis Müfəttişliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

22. Rəisin Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır.

23. Kiçik həcmli gəmilər üzrə dövlət müfəttişləri xüsusi geyim forması və fərqlənmə nişanları daşımaq hüququna malikdirlər.

24. Rəis aşağıdakı səlahiyyətlərə malikdir:

24.1. Müfəttişliyin işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir;

24.2. öz müavinləri arasında vəzifə bölgüsü aparır, onların məsuliyyət dairəsini və səlahiyyətlərini müəyyən edir;

24.3. Müfəttişliyin maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir, pozuntular aşkarlandığı hallarda Nazirliyə müvafiq təqdimatlar verir və ya öz səlahiyyətləri daxilində tədbirlər görür;

24.4. Müfəttişliyin fəaliyyət sahəsinə aid olan məsələlərlə bağlı normativ hüquqi aktları müəyyən olunmuş qaydada təsdiq edilmək üçün Nazirliyə təqdim edir;

24.5. Müfəttişliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan əmr və göstərişlərini ləğv edir;

24.6. Müfəttişliyin struktur bölmələri haqqında əsasnamələrin layihələrini hazırlayır və təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

24.7. Müfəttişliyin fəaliyyəti üzrə məlumatları və hesabatları hazırlayır və Nazirliyə təqdim edir;

24.8. Müfəttişliyi dövlət orqanları, digər qurumlar və şəxslər, beynəlxalq təşkilatlarla münasibətlərdə öz səlahiyyətləri daxilində təmsil edir;

24.9. Müfəttişliyin əməkdaşlarının qanunvericiliklə müəyyən edilmiş qaydada attestasiyasının keçirilməsini təşkil edir;

24.10. qanunvericiliklə nəzərdə tutulan inzibati xətalara dair protokol tərtib etməyə səlahiyyəti olan vəzifəli şəxslərin siyahısını Nazirliyə təqdim edir;

24.11. Müfəttişliyin tabeliyində olan struktur bölmələrin yaradılması, yenidən təşkili və ləğv edilməsi barədə Nazirliyə təkliflər verir;

24.12. Müfəttişlik sisteminə daxil olan büdcədən maliyyələşdirilən struktur bölmələrinin xüsusi rütbəsi olan əməkdaşlarına və mülki işçilərinə qanunvericilikdə nəzərdə tutulmuş həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi barədə Nazirliyə təqdimat verir;

24.13. Müfəttişlik dövlət büdcəsindən Nazirliyə ayrılmış və qanunvericiliyə zidd olmayan mənbələrdən əldə olunmuş maliyyə vəsaitini öz səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən olunmuş qaydada idarə edir, fəaliyyətinin xüsusiyyətləri və Müfəttişliyə ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, əməkdaşlarının vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş məbləğdə əlavələrin, maddi yardım və mükafatların verilməsi barədə Nazirlik qarşısında məsələ qaldırır;

24.14. Müfəttişliyin səlahiyyətlərinə aid edilən məsələlər üzrə növbəti il üçün Nazirliyin saxlanılması xərclərinin formalaşdırılması ilə bağlı təkliflər verir, fəaliyyəti ilə əlaqədar olaraq qanunvericiliklə müəyyən edilmiş mənbələr hesabına Nazirliyin büdcədənkənar vəsaitlərinin yaradılmasında iştirak edir və Nazirliyin təsdiq etdiyi gəlirlər və xərclər smetasına uyğun olaraq həmin vəsaitlərdən təyinatı üzrə istifadə olunmasını təmin edir;

24.15. qanunvericiliklə müəyyən edilmiş digər səlahiyyətləri yerinə yetirir.

25. Müfəttişliyin xüsusi rütbəsi olan əməkdaşları qanunvericiliklə müəyyən edilmiş qaydaya və siyahıya uyğun olaraq xidməti silah gəzdirə bilərlər.

Azərbaycan Respublikası Prezidentinin

2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanı ilə

TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyi haqqında**

**Ə S A S N A M Ə**

## I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyi (bundan sonra - Agentlik) Azərbaycan Respublikasının ərazisində dövlət, səfərbərlik, ərzaq və fövqəladə hallar üzrə ehtiyatların (bundan sonra - dövlət material ehtiyatları) yaradılması sahəsində dövlət siyasətinin və tənzimlənməsinin işlənib hazırlanmasında iştirak edən, bu sahədə idarəetməni və dövlət material ehtiyatları üzrə nəzarəti həyata keçirən, dövlət material ehtiyatlarının həcmi, nomenklaturu və formalaşması haqqında təkliflər hazırlayan, dövlət material ehtiyatlarının yığılması, saxlanması, qorunması, yenilənməsi, buraxılması, bərpası və təxsis edilməsi (dövlət material ehtiyatından çıxarılması) əməliyyatlarını yerinə yetirən və beynəlxalq humanitar yardımlar üzrə tapşırıqları həyata keçirən icra hakimiyyəti orqanıdır.

2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (bundan sonra - Nazirlik) əmr və göstərişlərini rəhbər tutur.

3. Agentlik fəaliyyətini tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq bilavasitə ehtiyatlar saxlanılan müəssisələr və tabeliyində olan idarə, müəssisə və təşkilatlar (bundan sonra - dövlət material ehtiyatları saxlanılan müəssisələr) vasitəsilə həyata keçirir.

4. Agentlik müstəqil balansa, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, Nazirliyin və Agentliyin adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara, xəzinə və bank hesablarına malikdir.

5. Agentliyin saxlanması xərcləri və fəaliyyəti Nazirlik tərəfindən təsdiq olunmuş xərc smetasına uyğun olaraq ayrılmış büdcə vəsaiti və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

6. Agentlik Bakı şəhərində yerləşir.

## II. AGENTLİYİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

7. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

7.1. dövlət material ehtiyatlarının idarə edilməsi sahəsində dövlət siyasətinin və normativ hüquqi tənzimlənmənin işlənib hazırlanmasında iştirak edir;

7.2. dövlət material ehtiyatlarının idarə olunmasını təşkil edir və həyata keçirir;

7.3. Agentliyin səlahiyyətlərinə aid edilən məsələlər üzrə nəzarət funksiyasının həyata keçirilməsində iştirak edir;

7.4. dövlət material ehtiyatlarının yaradılmasında dövlət sifarişini təmin edir;

7.5. Agentliyin fəaliyyət dairəsinə aid edilən sahələrin inkişafını təmin edir;

7.6. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. AGENTLİYİN VƏZİFƏLƏRİ

8. Agentlik bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

8.1. dövlət material ehtiyatlarının həcmi, nomenklaturu və yığım normaları, eləcə də onların formalaşması, saxlanması, istifadəsi, yenilənməsi, buraxılması, bərpası və təxsis olunması qaydaları ilə bağlı təklifləri hazırlamaq və müvafiq qaydada Nazirliyə təqdim etmək;

8.2. Agentliyin fəaliyyəti ilə bağlı normativ hüquqi aktların layihəsini hazırlamaq və təsdiq olunmaq üçün müvafiq qaydada Nazirliyə təqdim etmək;

8.3. Agentliyin tabeliyində olan büdcədən maliyyələşdirilən struktur bölmələrinin əsasnamələrinin (və ya tabeliyində özünümaliyyələşdirmə prinsipi ilə işləyəcək qurumların nizamnamələrinin) layihələrini hazırlamaq və təsdiq olunmaq üçün müvafiq qaydada Nazirliyə təqdim etmək;

8.4. dövlət material ehtiyatlarının yaradılması və idarə edilməsində iştirak etmək;

8.5. fövqəladə halların nəticələrinin aradan qaldırılmasında operativliyi təmin etmək məqsədilə Nazirliyin idarəçiliyində yaradılan cari material ehtiyatlarının yaradılmasında və idarə edilməsində iştirak etmək;

8.6. ölkə iqtisadiyyatının strateji əhəmiyyətli mallarının daxili bazarının sabitliyinin tənzimlənməsi ilə bağlı dövlət tapşırıqlarını yerinə yetirmək;

8.7. dövlət material ehtiyatlarına (habelə Nazirliyin idarəçiliyində yaradılan cari material ehtiyatları fonduna) maddi sərvətlərin toplanmasını, saxlanmasını, yenilənməsini və istifadəsini qanunvericiliklə müəyyən edilmiş qaydada təmin etmək və buna öz səlahiyyətləri daxilində nəzarəti həyata keçirmək;

8.8. dövlət material ehtiyatlarından buraxılan malların dəyərinin ödənilməsinə və ehtiyatların bərpa edilməsinə öz səlahiyyətləri daxilində nəzarət etmək;

8.9. dövlət material ehtiyatları ilə bağlı məlumatların qanunvericiliklə müəyyən edilmiş qaydada məxfiliyini təmin etmək;

8.10. Agentliyin fəaliyyətinin təşkili üçün ayrılan vəsaitlərdən səlahiyyətləri daxilində təyinatı üzrə istifadə etmək;

8.11. dövlət material ehtiyatlarının saxlanıldığı müəssisələrdə ehtiyatların saxlanmasına nəzarət etmək, onların hərəkətini, qalığını və keyfiyyətini yoxlamaq, çatışmazlıqların aradan qaldırılması üçün göstərişlər vermək;

8.12. fövqəladə hallarda humanitar yardımların (o cümlədən xarici ölkələrdən alınan və xarici ölkələrə göstərilən) çatdırılmasında öz səlahiyyətləri daxilində iştirak etmək;

8.13. dövlət material ehtiyatları saxlanılan müəssisələrdə ehtiyata qəbul edilmiş malların müvafiq nomenklatura, dövlət standartlarına və texniki şərtlərə uyğunluğuna nəzarət etmək;

8.14. dövlət material ehtiyatlarının saxlanılması üçün nəzərdə tutulmuş yeni müəssisələrin tikinti yerlərinin seçilməsi və ehtiyatların ərazilər üzrə yerləşdirilməsinin təmin edilməsi barədə Nazirliyə təkliflər vermək;

8.15. dövlət material ehtiyatlarının yığımı, buraxılması, yenilənməsi, bərpası və dəyişdirilməsi üzrə təsdiq edilmiş tapşırıqların yerinə yetirilməsini səlahiyyətləri daxilində təmin etmək;

8.16. aidiyyəti dövlət orqanlarının və dövlət material ehtiyatları saxlanılan müəssisələrin dövlət material ehtiyatlarının idarə olunması məsələləri üzrə müraciətlərinə rəy hazırlamaq və Nazirliyə təqdim etmək;

8.17. Agentliyin tabeliyində olan idarə, müəssisə və təşkilatların müəyyən olunmuş qaydada maliyyələşdirilməsini həyata keçirmək;

8.18. tabeliyində olan idarə, müəssisə və təşkilatlarda uçot və hesabat işlərini təşkil etmək, mühasibat və statistik hesabatları müəyyən olunmuş qaydada təqdim etmək;

8.19. dövlət material ehtiyatlarının yaradılması üzrə sifarişçi vəzifəsini icra etmək və tədarükü üzrə hesablaşmaları həyata keçirmək;

8.20. dövlət material ehtiyatlarının yığılması və təxsis edilməsi üzrə Nazirliyə təkliflər vermək;

8.21. dövlət material ehtiyatlarının uçotunu təşkil etmək, onların mövcudluğunun və hərəkətinin icmal hesabatını aparmaq, dövlət material ehtiyatlarının yığımı və hərəkəti haqqında müəyyən olunmuş müddətlərdə Nazirliyə hesabat vermək;

8.22. tabeliyindəki idarə, müəssisə və təşkilatların fəaliyyətinə rəhbərliyi təmin etmək, dövlət material ehtiyatlarının təyinatı üzrə istifadəsi və saxlanması xərclərinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər həyata keçirmək;

8.23. Agentliyin sisteminə daxil olan strukturların maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər vermək;

8.24. öz səlahiyyətləri daxilində dövlət əmlakının mühafizəsi və yanğın təhlükəsizliyi, mülki müdafiə və səfərbərliyə hazırlıq üzrə tədbirləri həyata keçirmək;

8.25. struktur bölmələrinin fəaliyyətinin təkmilləşdirilməsi barədə Nazirliyə təkliflər vermək və öz səlahiyyətləri daxilində tədbirlər görmək;

8.26. Agentliyə daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

8.27. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## IV. AGENTLİYİN HÜQUQLARI

9. Agentlik öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. dövlət material ehtiyatlarının yaradılması və istifadəsi sahəsində normativ hüquqi aktların layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

9.2. Agentliyin struktur bölmələrini yaratmaq, yenidən təşkil etmək və ləğv etmək barədə Nazirliyə təkliflər vermək;

9.3. dövlət material ehtiyatları saxlanılan müəssisələrdə ehtiyata qəbul edilmiş malların təsdiq olunmuş nomenklatura, dövlət standartlarına və ya texniki şərtlərə uyğunluğunu, ehtiyata qəbul edilmiş malların hərəkətini, mövcudluğunu və keyfiyyətini, saxlanma şərtlərinə uyğunluğunu yoxlamaq və çatışmazlıqların aradan qaldırılması üçün göstərişlər vermək;

9.4. dövlət material ehtiyatları saxlanılan müəssisələrdən dövlət material ehtiyatlarının nomenklaturu və həcminin müəyyən edilməsi və yerləşməsi üçün məlumatlar almaq;

9.5. dövlət material ehtiyatlarına maddi sərvətlərin toplanması, saxlanması, yenilənməsi və idarə olunması ilə bağlı şərtlərin pozulması, habelə borca və icazəsiz götürülmüş maddi dəyərlərin dövlət material ehtiyatlarına vaxtında qaytarılmaması hallarında qanunvericiliklə nəzərdə tutulmuş tədbirlər görmək;

9.6. tabeliyində özünümaliyyələşdirmə prinsipi ilə işləyəcək qurumların yaradılması ilə bağlı Nazirliyə təkliflər vermək;

9.7. sərəncamında olan maliyyə vəsaitlərini müəyyən olunmuş qaydada və səlahiyyətləri daxilində idarə etmək;

9.8. Agentliyin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə lazım olan məlumatları və sənədləri əldə etmək üçün dövlət və yerli özünüidarə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) tələb etmək;

9.9. Agentliyin ~~*aparatının hərbi qulluqçularının,*~~ aparatının və tabeliyində olan bölmələrin *işçilərinin* və onların ailə üzvlərinin, habelə pensiyaçılarının sağlamlığının qorunması istiqamətində qanunvericiliklə müəyyən edilmiş qaydada kompleks profilaktika, müalicə, sanatoriya-kurort və digər sosial müdafiə tədbirlərini həyata keçirmək təşəbbüsü ilə Nazirlik qarşısında məsələ qaldırmaq; **xviii[18]**

9.10. fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xarici ölkələrə humanitar yardım göstərilməsi və eləcə də xarici ölkələrdən humanitar yardım alınması barədə həmin ölkələrin müvafiq qurumları, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək;

9.11. Agentliyin fəaliyyət istiqamətinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

## V. AGENTLİYİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

10. Agentliyin aparatı və strukturuna daxil olan bölmələr Agentliyin vahid sistemini təşkil edir.

11. Nazirliyin büdcədən maliyyələşdirilən işçilərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən say həddi daxilində Agentliyin aparatının və tabeliyində olan bölmələrin büdcədən maliyyələşdirilən işçilərinin sayı, strukturu və ştat cədvəli, büdcə vəsaitləri üzrə xərclər smetası və qanunvericiliklə müəyyən edilmiş digər mənbələr üzrə gəlirlər və xərclər smetası Nazirlik tərəfindən təsdiq edilir.

*12. Agentliyin aparatının, strukturuna daxil olan və tabeliyində olan bölmələrinin işçiləri Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.***xix[19]**

13. Agentliyin aparatının ~~*mülki*~~ işçiləri dövlət qulluqçusu statusuna malikdirlər. **xx[20]**

14. ~~*Agentliyin aparatının hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləği Azərbaycan Respublikasının Prezidenti tərəfindən, pul təminatının digər növlərinin ödənilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən,*~~ Agentliyin tabeliyində olan büdcədən maliyyələşdirilən struktur bölmələrinin işçilərinin əməyinin ödənişi ~~*isə*~~ qanunvericiliyə uyğun olaraq müəyyən edilir. **xxi[21]**

15. Agentlikdə qulluq etmiş əməkdaşların və onların ailə üzvlərinin pensiya təminatı qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

16. Agentliyin aparatının və büdcədən maliyyələşdirilən struktur bölmələrinin maliyyələşdirilməsi dövlət büdcəsində Nazirliyin saxlanılması üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

~~*17. Agentliyin hərbi qulluqçularının xidmətkeçmə qaydaları və şərtləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.*~~ **xxii[22]**

18. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir.

19. Agentliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə rəis şəxsən məsuliyyət daşıyır.

20. Rəisin Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır.

21. Rəisin müavinləri rəis tərəfindən onlara həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

22. Rəis aşağıdakı səlahiyyətlərə malikdir:

22.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

22.2. öz müavinlərinin səlahiyyətlərini müəyyən edir;

22.3. Agentliyin aparatının*, strukturuna daxil olan və tabeliyində olan bölmələrinin* işçilərinin qanunvericiliklə nəzərdə tutulmuş həvəsləndirmə və intizam tədbirlərinə cəlb edilməsi üçün Nazirliyə təqdimat verir; **xxiii[23]**

22.4. səlahiyyətləri daxilində Agentliyin aparatının və tabeliyində olan qurumların fəaliyyətinə dair əmrlər, sərəncamlar və göstərişlər verir;

22.5. Agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər verir;

22.6. səlahiyyətləri daxilində Agentliyin fəaliyyət dairəsinə aid məsələlər üzrə beynəlxalq danışıqlarda iştirak edir;

22.7. Agentliyin büdcədən maliyyələşdirilən struktur bölmələrinin əsasnamələrini (və ya tabeliyində özünümaliyyələşdirmə prinsipi ilə işləyəcək qurumların nizamnamələrini) hazırlayır və təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

22.8. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsini təmin edir;

22.9. növbəti il üçün dövlət büdcəsinin layihəsinə daxil etmək məqsədilə dövlət material ehtiyatları sisteminə aid ediləcək xərclərin strukturu və məbləği barədə Nazirliyə təkliflər hazırlayır;

22.10. Agentliyin səlahiyyətlərinə aid edilən məsələlərlə bağlı məhkəmədə iddiaçı və cavabdeh qismində Nazirlik tərəfindən verilən səlahiyyətlər daxilində Nazirliyi təmsil edir;

22.11. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq digər səlahiyyətləri həyata keçirir.

Azərbaycan Respublikası Prezidentinin

2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanı ilə

TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi haqqında

## Ə S A S N A M Ə

### I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi (bundan sonra - Agentlik) ölkə ərazisində qanunvericiliklə müəyyən edilmiş qaydada öz səlahiyyətləri daxilində tikinti sahəsinə aid fəaliyyətin bütün mərhələlərində təhlükəsizlik tələbləri ilə bağlı dövlət siyasətinin hazırlanmasında iştirak edən, bu siyasətin həyata keçirilməsini təmin edən və həmin sahədə dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır.

2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (bundan sonra -Nazirlik) əmr və göstərişlərini rəhbər tutur.

3. Agentlik öz vəzifələrini yerinə yetirərkən Nazirliyin tabeliyində olan struktur bölmələri, digər icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

4. Agentlik müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

5. Agentliyin saxlanma xərcləri və fəaliyyəti Nazirliyə ayrılmış dövlət büdcə vəsaitləri və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

6. Agentlik Bakı şəhərində yerləşir.

## II. AGENTLİYİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

7. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

7.1. öz səlahiyyətləri daxilində tikinti sahəsinə aid fəaliyyətin bütün mərhələlərində təhlükəsizlik tələbləri ilə bağlı dövlət siyasətinin hazırlanmasında iştirak edir, bu siyasətin həyata keçirilməsini təmin edir və həmin sahədə dövlət nəzarətini həyata keçirir;

7.2. Nazirliyin digər struktur bölmələri, müvafiq dövlət orqanları ilə birlikdə ərazilərin, bina və qurğuların fövqəladə hallardan müdafiəsi və nəticələrinin aradan qaldırılmasının təşkilində iştirak edir;

7.3. Agentliyin fəaliyyət dairəsinə aid edilən sahələrin inkişafını təmin edir;

7.4. Agentlik qanunvericiliklə onun səlahiyyətlərinə aid olan digər istiqamətlərdə də fəaliyyət göstərir.

## III. AGENTLİYİN VƏZİFƏLƏRİ

8. Agentlik bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

8.1. Nazirliyin müvafiq qurumları ilə birlikdə aşağıda göstərilən məsələlərlə bağlı sənədlərin layihələrini işləyib hazırlamaq və Nazirliyə təqdim etmək:

8.1.1. ərazilərin, bina və qurğuların fövqəladə hallardan müdafiəsi və tikintidə təhlükəsizliyin təmin olunması sahəsində dövlət siyasətinin və tənzimləmə mexanizminin formalaşdırılması və həyata keçirilməsi ilə bağlı təklifləri;

8.1.2. tikinti üçün torpaq sahələrinin ayrılması və (və ya) tikintiyə icazə verilməsi, tikintinin memarlıq-planlaşdırma həllinin və mühəndis təminatı üçün texniki şərtlərinin müəyyənləşdirilməsi qaydalarının təhlükəsizlik tələblərinin təmin edilməsi baxımından təkmilləşdirilməsi barədə təkliflərini;

8.1.3. öz səlahiyyətləri daxilində topoqrafik-geodezik, mühəndis-geoloji, layihələndirmə, ekspertiza, o cümlədən dövlət ekspertiza, tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi, tikinti materiallarının, konstruksiyalarının və avadanlıqlarının tətbiqi, tikinti obyektlərinin istismara qəbulu, tikintidə qiymətqoymanın və dövlət nəzarətinin həyata keçirilməsi üzrə normativ hüquqi aktların layihələrini;

8.1.4. Agentliyin aparatının və tabeliyində olan təşkilatların əsasnamələrinin (nizamnamələrinin) layihələrini;

8.1.5. Agentliyin fəaliyyəti ilə bağlı digər normativ hüquqi aktları;

8.2. digər dövlət orqanları tərəfindən tikinti və tikinti materialları sahəsinə aid normativ hüquqi aktların hazırlanmasında iştirak etmək;

8.3. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı Azərbaycan Respublikasının Milli Konsepsiyası layihəsinin işlənib hazırlanmasında iştirak etmək;

8.4. fövqəladə halların qarşısının alınmasını və nəticələrinin aradan qaldırılmasını operativ surətdə təşkil etmək məqsədilə Azərbaycan Respublikasının bütün ərazisini əhatə edən "Fövqəladə Halların İdarə Olunmasının Coğrafi İnformasiya Sisteminin" (GİS) yaradılmasında iştirak etmək;

8.5. ölkə ərazisində potensial təbii və texnogen fəlakət zonalarının müəyyənləşdirilməsində, onların belə hadisələrdən mühafizəsi üçün müdafiə qurğularının yerləşməsinin Baş sxeminin işlənib hazırlanmasında iştirak etmək, bu qurğuların layihələndirilməsini və tikintisini təşkil etmək;

8.6. istismar olunan bina və qurğuların seysmik davamlılığının, təbii fəlakətlərə qarşı dayanıqlığının artırılması üzrə zəruri tədbirlər proqramının işlənib hazırlanmasını öz səlahiyyətləri daxilində təşkil etmək və həyata keçirilməsinə nəzarət etmək;

8.7. ərazilərin, binaların və qurğuların təbii və texnogen fəlakətlərdən müdafiəsi üzrə layihələndirmə və tikinti-quraşdırma işlərinin yerinə yetirilməsində tikinti norma və qaydalarının tələblərinə əməl olunmasına öz səlahiyyətləri daxilində nəzarət etmək;

8.8. təbii və texnogen qəzalar zamanı Nazirliyin digər struktur bölmələri ilə birlikdə zərər çəkmiş ərazilərdə, bina və qurğularda həyat təminatının təcili bərpasında iştirak etmək;

8.9. təbii və texnogen qəzalar nəticəsində zərər çəkmiş ərazilərin, binaların və qurğuların qəza səbəblərinin müəyyənləşdirilməsini təşkil etmək, bu qəzalar nəticəsində dəymiş ziyanın qiymətləndirilməsini təmin etmək;

8.10. təbii və texnogen qəzalar nəticəsində zərər çəkmiş ərazilərdə, bina və qurğularda bərpa və yenidənqurma işlərini təşkil etmək və bu işlərlə bağlı sifarişçi funksiyalarını *(dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələri istisna olmaqla)* yerinə yetirmək;**xxiv[24]**

8.11. tikinti sahəsinə aid olan məsələlərlə bağlı fəaliyyət növlərinə qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada xüsusi razılıq (lisenziya), xüsusi icazə və digər hüquqmüəyyənedici sənədlərin verilməsi barədə Nazirliyə rəy vermək;

8.12. şəhərlərin və rayon mərkəzlərinin Baş planlarının və müfəssəl planlaşdırma layihələrinin, ərazilərin məskunlaşma və inkişaf sxemlərinin işlənib hazırlanmasında öz səlahiyyətləri daxilində iştirak etmək, bu sənədlərin təhlükəsizlik normalarına uyğun olması barədə rəy vermək;

8.13. ölkə ərazisində şəhərsalmanın, məskunlaşmanın həyata keçirilməsi, sosial təyinatlı və infrastruktur obyektlərinin tikintisinin yerinə yetirilməsi zamanı tikintidə təhlükəsizliyin təmin olunması ilə bağlı müvafiq norma və qaydalara, baş planlara və müfəssəl planlaşdırma layihələrinə, ərazilərinin məskunlaşma və inkişaf sxemlərinə bütün dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən əməl olunmasına öz səlahiyyətləri daxilində nəzarət etmək;

8.14. şəhərsalmanın, məskunlaşmanın həyata keçirilməsini, sosial və infrastruktur obyektlərinin tikintisini tənzimləyən norma və qaydaların təhlükəsizlik baxımından təkmilləşdirilməsini işləyib hazırlamaq və onlara əməl olunmasına nəzarət etmək;

8.15. şəhərlərin və rayonların tarixi və mərkəzi hissələrində tikintisi planlaşdırılan obyektlərin təhlükəsizlik baxımından mümkünlüyü və məqsədəuyğunluğu haqqında rəy vermək;

8.16. tikinti obyektləri üçün aparılmış topoqrafiya və geodeziya, mühəndis-geoloji işlərini təhlil edərək, onların tikintinin təhlükəsizliyi ilə bağlı müvafiq norma və qaydalara uyğun olub-olmaması barədə rəy vermək;

8.17. torpaq sahələrinin tikinti məqsədi üçün ayrılması mərhələsində həmin sahələrin ayrılmasının seysmik davamlılıq baxımından mümkünlüyünə rəy vermək;

8.18. tikinti obyektləri üçün topoqrafiya və geodeziya, mühəndis-geoloji işlərin yerinə yetirilməsi metodikasının tikintinin təhlükəsizliyi məqsədilə təkmilləşdirilməsi üçün təşkilati tədbirlərin hazırlanmasını, həyata keçirilməsini təmin etmək və ona əməl olunmasına nəzarət etmək;

8.19. tikinti sahəsində dövlət ekspertizasını təşkil etmək və aşağıdakı məsələlərlə bağlı rəy vermək:

8.19.1. dövlət ekspertizasına təqdim olunan sənədlərin müvafiq qaydalara uyğun olaraq tam həcmdə olması və müəyyən olunmuş tələblərə uyğun işlənməsi barədə;

8.19.2. şəhərlərin və rayon mərkəzlərinin Baş planlarının, müfəssəl planlaşdırma layihələrinin, məskunlaşma və inkişaf sxemlərinin təhlükəsizlik baxımından şəhərsalma norma və qaydalarına uyğunluğu barədə;

8.19.3. tikinti, bərpa, yenidənqurma və əsaslı təmir obyektlərinin layihələrinin tikinti normalarına uyğunluğu, tikiləcək binaların, qurğuların və komplekslərin layihə həllərinin konstruktiv möhkəmlik və davamlılıq, seysmik dayanıqlıq, təhlükəsizlik tələblərinə cavab verməsi barədə;

8.19.4. öz səlahiyyətləri daxilində büdcə, büdcədənkənar vəsaitlər, dövlət zəmanətli kreditlər, qrantlar hesabına maliyyələşdirilən tikinti, bərpa, yenidənqurma və əsaslı təmir obyektlərinin texniki-iqtisadi hesablamaları, texniki-iqtisadi əsaslandırmaları və smetaları barədə;

8.19.5. obyektlərin konservasiyası və ləğvi ilə bağlı layihələrin təhlükəsizlik tələblərinə uyğun olması barədə;

8.20. tikinti sahəsində dövlət ekspertizası qaydalarının təkmilləşdirilməsi ilə bağlı tədbirlərin hazırlanmasını və həyata keçirilməsini təmin etmək;

8.21. topoqrafik-geodezik, mühəndis-geoloji layihələndirmə, tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi, tikinti materialları və konstruksiyalarının, avadanlığın tətbiqinə aid normativ hüquqi və normativ-texniki sənədlərin təkmilləşdirilməsini təmin etmək və onların tələblərinə mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq bütün orqanlar və təşkilatlar tərəfindən əməl olunmasına öz səlahiyyətləri daxilində nəzarət etmək;

8.22. dövlət nəzarət sistemini tətbiq etmək üçün tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün tikinti, bərpa, yenidənqurma və əsaslı təmir obyektlərində normativ hüquqi və

normativ texniki aktların tələblərinə əməl olunması məqsədilə öz səlahiyyətləri daxilində aşağıdakı işləri yerinə yetirmək:

8.22.1. layihələri müəyyən olunmuş qaydada işlənilmiş, dövlət ekspertizasından keçirilmiş və təsdiq olunmuş obyektləri uçota almaq, tikinti norma və qaydalarında nəzərdə tutulmuş tələbləri yerinə yetirməklə tikinti-quraşdırma işlərinin başlanmasına nəzarət etmək;

8.22.2. hər bir mərhələdə yerinə yetirilən tikinti-quraşdırma işlərinin təsdiq olunmuş layihələrə, tikinti norma və qaydalarına uyğunluğuna nəzarət etmək;

8.22.3. tikintidə istifadə olunan tikinti materiallarının, konstruksiyalarının və avadanlıqlarının müvafiq sertifikatlarının olmasını, onların dövlət standartlarının tələblərinə cavab verməsini, müəyyən olunmuş qaydada istifadədən əvvəl sınaqdan və texniki təhlükəsizlik ekspertizasından keçirilməsini yoxlamaq;

8.22.4. tikintidə sifarişçi tərəfindən texniki nəzarətin, layihəçi tərəfindən müəllif nəzarətinin, podratçı tərəfindən daxili əməliyyat nəzarətinin müəyyən olunmuş qaydalara uyğun olaraq aparılmasına nəzarət etmək;

8.22.5. tikinti və tikinti ətrafı ərazilərdə müəyyən olunmuş təhlükəsizlik tələblərinə əməl olunmasına nəzarət etmək;

8.23. tikinti norma və qaydalarını pozmaqla həyata keçirilən tikintilərdə, hüquqi və fiziki şəxslərə qarşı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

8.24. tikinti, bərpa, yenidənqurma və əsaslı təmir obyektlərində dövlət nəzarətinin, sifarişçilər tərəfindən texniki nəzarətin, layihəçilər tərəfindən müəllif nəzarətinin, podratçılar tərəfindən daxili əməliyyat nəzarətinin yerinə yetirilməsi qaydalarının təkmilləşdirilməsi ilə bağlı təklifləri işləyib hazırlamaq və Nazirliyə təqdim etmək;

8.25. tikintisi planlaşdırılan obyektlərin mümkünlüyünün və məqsədəuyğunluğunun müəyyən edilməsi məqsədilə yaradılan, ictimai əsaslarla fəaliyyət göstərən Ekspert Qrupunun tərkibi barədə Nazirliyə təkliflər vermək, bu Qrupun işini təşkil etmək;

8.26. ölkədə istehsal olunan və ölkəyə idxal edilən tikinti materiallarının və konstruksiyalarının, tikintidə istifadə olunan avadanlıqların (detalların), maşın və mexanizmlərin tikintidə təhlükəsizlik tələblərinə uyğun olması ilə bağlı sertifikatlaşdırılmasında öz səlahiyyətləri daxilində iştirak etmək;

8.27. tikinti, tikinti materialları və konstruksiyalarının və avadanlığın (detalların) istehsalı üzrə normativ-texniki sənədlərin təhlükəsizlik baxımından təkmilləşdirilməsi üzrə tədbirlər planı işləyib hazırlamaq və onun yerinə yetirilməsinə nəzarət etmək;

8.28. tikinti materialları və konstruksiyaları, tikintidə istifadə olunan avadanlıqların (detalların) sınağı üzrə laboratoriyaları akkreditasiyadan keçirmək;

8.29. tikinti materialları və konstruksiyalarının, tikintidə istifadə olunan avadanlıqların sınaq metodikalarının təkmilləşdirilməsi üçün nazirliyin müvafiq strukturları ilə birlikdə tədbirlər planı işləyib hazırlamaq və həyata keçirilməsinə nəzarət etmək;

8.30. büdcə, büdcədənkənar vəsaitlər, dövlət zəmanətli kreditlər, qrantlar hesabına tikilən obyektlərdə qiymətqoyma işlərini yerinə yetirmək;

8.31. tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq tikinti, bərpa, yenidənqurma və əsaslı təmir obyektlərinin istismara qəbulunda iştirak etmək, obyektlərin təhlükəsizlik baxımından texniki inventarlaşmasını həyata keçirmək, bu obyektlərin istismara qəbulu qaydalarının təkmilləşdirilməsi üçün tədbirlər işləyib hazırlamaq;

8.32. tikinti, tikinti materialları və konstruksiyaları, tikintidə istifadə olunan avadanlıq, maşın və mexanizmlər üzrə elmi tədqiqat və təcrübə-konstruktor işlərini aparmaq;

8.33. tikilməkdə olan və tikintisi başa çatmış obyektlər üzrə topoqrafikgeodezik, mühəndis-geoloji, layihə, tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə aid icra sənədlərinin vahid informasiya və arxiv sistemini yaratmaq;

8.34. istismar olunan yaşayış evlərində, binalarda, qurğularda uçma və dağılma təhlükəsi yaradan icazəsiz yenidənqurma və söküntü işlərinin aparılmasının qarşısının alınması üçün tədbirlər işləyib hazırlamaq və onların həyata keçirilməsinə nəzarət etmək;

8.35. istismar olunan yaşayış evlərinin, binaların və qurğuların, insanların kütləvi surətdə cəmləşdiyi və istifadə etdiyi tikintilərin, məskunlaşma ərazilərində yerləşən potensial təhlükə mənbəyi olan obyektlərin müvafiq norma və qaydalara uyğun olaraq tikilməsini və istismar olunmasını yoxlamaq, onların istismarının mümkünlüyü barədə rəy vermək və istismarının dayandırılması haqqında Nazirlik qarşısında məsələ qaldırmaq;

8.36. qanunsuz tikintilərin qarşısının alınması üzrə tədbirlər planı işləyib hazırlamaq və onun həyata keçirilməsinə nəzarət etmək;

8.37. tikinti fəaliyyətinin mərhələlərində, o cümlədən tikinti üçün torpaq sahələrinin ayrılması (tikintiyə icazə verilməsi), tikinti obyektlərinin memarlıq-planlaşdırma həllərinin və mühəndis təminatı üçün texniki şərtlərin müəyyənləşdirilməsi, topoqrafik-geodezik, mühəndis-geoloji, layihələndirmə, tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi və obyektlərin istismara qəbulu zamanı aşkar olunan pozuntuların aradan qaldırılması ilə bağlı öz səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

8.38. mülki müdafiə qoşunlarının, axtarış-xilasetmə, qəza-xilasetmə və sair hissələrinin şəhərciklərinin tikintisi və inkişafı üzrə baş planlarını, tikinti layihələrini işləyib hazırlamaq;

8.39. fövqəladə halların qarşısının alınması və aradan qaldırılması ilə bağlı elmi tədqiqat və konstuktor-təcrübə işlərinin aparılmasında iştirak etmək;

8.40. dövlət büdcəsi və büdcədənkənar fondlar hesabına fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı tikinti, təmir və bərpa işləri üçün podratçıların seçilməsi sahəsində qanunvericiliklə müəyyən edilmiş tədbirlər görmək;

8.41. fövqəladə hallar nəticəsində dəymiş zərərin ödənilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

8.42. Agentliyin fəaliyyət dairəsinə aid məsələlər üzrə statistik uçotu Nazirliklə razılaşdırılmış qaydada təşkil etmək;

8.43. Agentliyin fəaliyyət sahələri üzrə peşə və kadr hazırlığı, kadrların əlavə təhsili üzrə proqram layihələri hazırlamaq, yerinə yetirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək; **xxv[25]**

8.44. Agentliyə ayrılan büdcə vəsaitlərindən, kreditlərdən, qrantlardan və qanunvericilikdə nəzərdə tutulan digər maliyyə vəsaitlərindən səmərəli istifadə olunmasını təmin etmək;

8.45. Agentliyin strukturunun formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək;

8.46. Agentliyin aparatının, tabeliyində olan büdcədən maliyyələşdirilən struktur bölmələrinin kadr, maliyyə və təsərrüfat məsələlərinə aid fəaliyyətinin müvafiq normativ hüquqi aktların tələblərinə, Nazirliyin müvafiq təlimatlarına uyğun olmasına öz səlahiyyətləri daxilində nəzarət etmək;

8.47. Agentliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı şikayət və ərizələrə baxmaq, qanunvericiliyə və Nazirliyin müvafiq təlimatlarına uyğun tədbirlər görmək;

8.48. öz səlahiyyətləri daxilində fəaliyyəti ilə bağlı dövlət sirrinin və məxfilik rejiminin qanunvericiliyə və Nazirliyin müvafiq təlimatlarına uyğun olaraq qorunmasını təmin etmək;

8.49. Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. AGENTLİYİN HÜQUQLARI

9. Agentlik öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. tikintidə təhlükəsizliyin təmin edilməsi sahəsində normativ hüquqi aktların layihələrini hazırlamaq və (və ya) onların hazırlanmasında iştirak etmək;

9.2. dövlət ekspertizasına təqdim edilmiş şəhərsalma, layihəqabağı, layihə-smeta sənədləri tam həcmdə olmadıqda və tələb olunan qaydada işlənilmədikdə bu sənədlərdə aşkarlanmış pozuntuların aradan qaldırılması barədə tələbləri göstərməklə mənfi rəy vermək;

9.3. dövlət ekspertizasının keçirilməsi üçün təqdim olunmuş sənədlərin tikinti, layihələndirmə norma və qaydalarına uyğun olduğu müəyyənləşdirildikdən və ya onlarda ekspertiza zamanı aşkarlanmış pozuntular aradan qaldırıldıqdan sonra bu sənədlərə dair müsbət rəy vermək;

9.4. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı tikinti-bərpa işləri sahəsində üzərinə düşən vəzifələri yerinə yetirməyən dövlət və yerli özünüidarəetmə orqanlarının vəzifəli şəxslərinə qarşı müvafiq tədbirlər görülməsi barədə Nazirlik qarşısında məsələ qaldırmaq;

9.5. topoqrafik-geodezik, mühəndis-geoloji, layihələndirmə, tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi zamanı tikinti norma və qaydalarına əməl olunmadıqda, istismar olunan binalarda və

qurğularda icazəsiz yenidənqurma və söküntü işləri aparıldıqda bu pozuntulara yol vermiş bütün hüquqi və fiziki şəxslərə qarşı öz səlahiyyətləri daxilində qanunvericiliklə nəzərdə tutulan müvafiq tədbirləri həyata keçirmək;

9.6. tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi zamanı tikinti norma və qaydalarının pozulması hallarında, bu tikintilərin dayandırılması və pozuntuların aradan qaldırılması üçün öz səlahiyyətləri daxilində qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirləri həyata keçirmək;

9.7. istismar olunan bina və qurğuların, insanların kütləvi toplaşdığı və istifadə etdiyi məskunlaşma ərazilərində yerləşən obyektlərin potensial təhlükə mənbəyi olması müəyyənləşdirildikdə, müvafiq tədbirlərin görülməsi barədə Nazirlik qarşısında məsələ qaldırmaq;

9.8. öz səlahiyyətləri daxilində qanunsuz tikililəri dayandırmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada digər tədbirlər həyata keçirmək;

9.9. tikinti, yenidənqurma və əsaslı təmir obyektlərinin istismara qəbul qaydalarının pozulması və ya belə obyektlərin müəyyən olunmuş qaydada istismara qəbul olunmadan istismar edilməsi hallarında, bu pozuntulara yol vermiş şəxslərə qarşı müvafiq tədbirlərin görülməsi barədə Nazirlik qarşısında məsələ qaldırmaq;

9.10. ölkədə istehsal olunan və ölkəyə idxal olunan tikinti materiallarının və konstruksiyalarının, tikintidə istifadə olunan avadanlığın, maşın və mexanizmlərin keyfiyyəti və xarakteristikası barədə rəy vermək, təhlükəsizlik tələblərinə cavab vermədiyi hallarda onların istehsalı və ya idxalı ilə bağlı qanunvericiliklə müəyyən olunmuş qaydada tədbirlər görülməsi barədə Nazirliyə təkliflər vermək;

9.11. tabeliyində olan təşkilatlar tərəfindən yerinə yetirilən xidmətlərə qanunvericiliklə nəzərdə tutulmuş qaydada və miqdarda ödənişlər tətbiq etmək, əldə olunmuş vəsaitlər hesabına Nazirliyin büdcədənkənar fondunun yaradılmasında iştirak etmək;

9.12. Agentliyin səlahiyyətlərinə aid olan məsələlər barədə məlumatları və sənədləri əldə etmək üçün yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

9.13. Agentliyin səlahiyyətlərinə aid edilən məsələlərlə bağlı məhkəmədə iddiaçı və cavabdeh qismində çıxış etmək;

9.14. Agentliyin fəaliyyətinə aid aktual məsələləri müzakirə etmək üçün nümayəndəlik əsasında idarələrarası əlaqələndirmə və məşvərət orqanları yaratmaq və zəruri hallarda mütəxəssisləri və ekspertləri cəlb etmək;

9.15. sərəncamında olan büdcə vəsaitlərini müəyyən olunmuş qaydada idarə etmək;

9.16. Agentliyin işçilərinin, onların ailə üzvlərinin sağlamlığının qorunması ilə bağlı kompleks profilaktika, müalicə, sanatoriya-kurort və digər sosial müdafiə tədbirlərinin həyata keçirilməsi barədə Nazirliyə təkliflər vermək;

9.17. qanunvericiliklə müəyyən edilmiş qaydada beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq hakimiyyət orqanları (qurumları) ilə əməkdaşlıq etmək və təcrübə mübadiləsi aparmaq;

9.18. kadrların hazırlanması və əlavə təhsili ilə bağlı Nazirliyin proqramlarının həyata keçirilməsində iştirak etmək;

9.19. qanunvericiliklə müəyyən olunmuş və Nazirliklə razılaşdırılmış qaydada qəzet, jurnal, bülleten buraxmaq, nəşriyyat işini həyata keçirmək, Nazirliyin internet saytının Agentliyə aid bölməsinin işində iştirak etmək;

9.20. Agentliyin fəaliyyət istiqamətinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər tədbirləri həyata keçirmək.

## V. AGENTLİYİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

10. Agentliyin aparatı və tabeliyində olan təşkilatlar Agentliyin vahid sistemini təşkil edir.

11. Agentliyin aparatının, eləcə də bu Əsasnamənin 1-ci bəndində göstərilən tədbirləri öz səlahiyyətləri daxilində həyata keçirən büdcədən maliyyələşdirilən Baş Dövlət Tikinti Müfəttişliyinin və Tikilməkdə Olan Obyektlərin Birləşmiş Müdiriyyətinin dövlət qulluqçusu olan işçilərinin maddi təminatı Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Agentliyin tabeliyində olan büdcədən maliyyələşdirilən digər struktur bölmələrin aparatının dövlət qulluqçusu olmayan işçilərinin vəzifə maaşları qanunvericiliyə uyğun olaraq müəyyən edilir.

12. Agentliyin strukturu və ştat cədvəli, Nazirliyin büdcədən maliyyələşdirilən işçilərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən say həddi daxilində büdcədən maliyyələşdirilən işçilərinin sayı, xərclər smetası, büdcədənkənar vəsaitlər üzrə gəlirlər və xərclər smetası qanunvericiliklə müəyyən edilmiş qaydada Nazirlik tərəfindən təsdiq edilir.

13. Agentliyin aparatının və strukturuna daxil olan bölmələrin işçiləri Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

14. Agentliyin fəaliyyətinə Agentliyin rəisi (bundan sonra - rəis) rəhbərlik edir. Rəis Azərbaycan Respublikası fövqəladə hallar naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

15. Agentliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə rəis şəxsən məsuliyyət daşıyır.

16. Rəisin Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır.

17. Rəis aşağıdakı səlahiyyətlərə malikdir:

17.1. Agentliyin fəaliyyətini təşkil edir və onun maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir;

17.2. müavinlərinin səlahiyyətlərini müəyyən edir və onların icra olunmasına nəzarət edir;

17.3. Agentliyin səlahiyyətlərinə aid edilən məsələlər üzrə növbəti il üçün Nazirliyin saxlanılması xərclərinin formalaşdırılması ilə bağlı təkliflər verir, fəaliyyəti ilə əlaqədar olaraq qanunvericiliklə müəyyən edilmiş mənbələr hesabına Nazirliyin büdcədənkənar vəsaitlərin yaradılmasında iştirak edir və Nazirliyin təsdiq etdiyi gəlirlər və xərclər smetasına uyğun olaraq həmin vəsaitlərdən təyinatı üzrə istifadə olunmasını təmin edir;

17.4. Agentliyin tabeliyində olan struktur bölmələrinin yaradılması, yenidən təşkili və ləğv edilməsi haqqında Nazirliyə təkliflər verir;

17.5. Agentliyin fəaliyyət sahəsinə aid olan məsələlərlə bağlı normativ hüquqi aktların layihələrini müvafiq qaydada Nazirliyə təqdim edir;

17.6. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan əmr və göstərişlərini öz səlahiyyətləri daxilində ləğv edir;

17.7. qanunvericiliklə nəzərdə tutulan inzibati xətalara dair protokol, akt və digər sənədləri tərtib etməyə səlahiyyəti olan vəzifəli şəxslər barədə Nazirliyə təkliflər verir;

17.8. Agentliyin aparatının və tabeliyində olan qurumların əməkdaşlarının həvəsləndirilməsi və ya intizam məsuliyyətinə cəlb edilməsi barədə Nazirliyə təqdimat verir;

17.9. öz səlahiyyətləri daxilində Agentliyin aparatının və tabeliyində olan təşkilatların fəaliyyətinə dair əmrlər və göstərişlər verir, onların icrasına nəzarət edir;

17.10. Agentliyin strukturunun təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər verir;

17.11. Agentliyin tabeliyində olan büdcədən maliyyələşdirilən struktur bölmələrin əsasnamələrinin (və ya tabeliyində özünümaliyyələşdirmə prinsipi ilə işləyəcək qurumların nizamnamələrinin) layihələrini hazırlamaq və təsdiq olunmaq üçün müvafiq qaydada Nazirliyə təqdim etmək;

17.12. Agentliyin bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməsini təmin edir;

17.13. Agentliyə dövlət büdcəsindən ayrılmış və qanunvericiliyə zidd olmayan digər mənbələrdən əldə olunmuş maliyyə vəsaitlərini öz səlahiyyətləri daxilində idarə edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, əməkdaşlarının vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş məbləğdə əlavələr, maddi yardım və mükafatlar verilməsi barədə Nazirlik qarşısında məsələ qaldırır;

17.14. Agentliyin maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir;

17.15. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsini təmin edir və digər səlahiyyətlərə malikdir;

18. Agentlikdə rəisdən, onun müavinlərindən, Agentliyin aparatının və tabeliyində olan təşkilatlarının rəhbərlərindən ibarət ictimai əsaslarla fəaliyyət göstərən Şura yaradılır.

19. Şuranın üzvlərinin sayı və tərkibi, təşkili və fəaliyyət qaydaları Agentliyin təqdimatı əsasında Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən müəyyən edilir

FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 27 noyabr 2008-ci il tarixli 26 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 28 noyabr 2008-ci il, № 267, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 11, maddə 980)**
2. 26 dekabr 2008-ci il tarixli 40 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 12, maddə 1069)**
3. 10 fevral 2010-cu il tarixli **221** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 13 fevral 2010-cu il, № 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə** 85)
4. 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 85)**
5. 22 dekabr 2014-cü il tarixli **425** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 25 dekabr 2014-cü il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1579)**
6. 16 sentyabr 2015-ci il tarixli **610** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 20 sentyabr 2015-ci il, № 206, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, №9, maddə 997)**
7. 24 noyabr 2015-ci il tarixli **693** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 25 noyabr 2015-ci il, № 259)**

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

---

**i**[1] 22 dekabr 2014-cü il tarixli **425** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 25 dekabr 2014-cü il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1579)** ilə "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 1-ci bəndində "**və sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin əmlakının yanğından icbari sığortasının həyata keçirilməsinə dövlət yanğın nəzarətini**" sözləri "**, daşınmaz əmlakın (yaşayış binaları, yaşayış evləri və mənzillərin icbari sığortası istisna olmaqla) və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari qaydada sığortalanmasına nəzarəti**" sözləri ilə əvəz edilmişdir.

**ii**[2] 10 fevral 2010-cu il tarixli **221** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 13 fevral 2010-cu il, № 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 85**) ilə **7.2-ci** və **8.11-ci** bəndlərdə "**norma və**

**qaydalarının**" sözləri "**sahəsində normaların, standartların və qaydaların**" sözləri ilə əvəz edilmişdir.

iii[3] 10 fevral 2010-cu il tarixli **221** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 13 fevral 2010-cu il, № 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 85**) ilə 8.5-ci bənddə "**xidmətlərinin**" sözü "**bölmələrinin (dəstələrinin)**" sözləri ilə əvəz edilmişdir.

iv[4] 10 fevral 2010-cu il tarixli **221** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 13 fevral 2010-cu il, № 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 85**) ilə **7.2-ci** və **8.11-ci** bəndlərdə "**norma və qaydalarının**" sözləri "**sahəsində normaların, standartların və qaydaların**" sözləri ilə əvəz edilmişdir.

v[5] 22 dekabr 2014-cü il tarixli **425** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 25 dekabr 2014-cü il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1579)** ilə "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 8.26-cı yarımbənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~8.26. qanunvericiliklə müəyyən edilmiş qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin əmlakının yanğından icbari sığortasına dövlət yanğın nəzarətini həyata keçirmək;~~

vi[6] 10 fevral 2010-cu il tarixli **221** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 13 fevral 2010-cu il, № 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 85**) ilə 9.3-cü bənddə "**qaydalarının**" sözü "**sahəsində normaların, standartların və qaydaların**" sözləri ilə əvəz edilmişdir.

vii[7] 10 fevral 2010-cu il tarixli **221** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 13 fevral 2010-cu il, № 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 85**) ilə 9.4-cü bənddə "**xidməti**" sözü "**bölməsi (dəstəsi)**" sözləri ilə, "**orqanlarının**" sözü "**qurumlarının**" sözü ilə əvəz edilmişdir.

viii[8] 26 dekabr 2008-ci il tarixli 40 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 12, maddə 1069)** ilə 9.11-ci bənddə «**Xidmətin xüsusi rütbəsi olan əməkdaşlarının, mülki işçilərinin və pensiyaçılarının, onların ailə üzvlərinin sağlamlığının qorunması istiqamətində**» sözləri «**Xidmətin xüsusi rütbəsi olan əməkdaşlarının, digər işçilərinin və onların ailə üzvlərinin, habelə pensiyaçılarının sağlamlığının qorunması istiqamətində qanunvericiliklə müəyyən edilmiş qaydada**» sözləri ilə əvəz edilmişdir.

ix[9] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 85)** ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 9.15-ci bəndində "**ixtisaslarının artırılması**" sözləri "**əlavə təhsili**" sözləri ilə əvəz edilmişdir.

x[10] 26 dekabr 2008-ci il tarixli 40 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 12, maddə 1069)** ilə 14-cü bənddə «**Xidmətin xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə və xüsusi rütbəyə görə maaşlarının məbləği və pul təminatının digər növləri Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləğinə və pul təminatının digər növlərinə uyğun olaraq**» sözləri «**Xidmətin xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə və xüsusi rütbəyə görə maaşlarının məbləği Azərbaycan Respublikasının Prezidenti tərəfindən, pul təminatının digər növlərinin ödənilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən**» sözləri ilə əvəz edilmişdir.

xi[11] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 85)** ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə qoşunları haqqında Əsasnamə"nin 8.22-ci bəndində "**təkmilləşdirilməsini**" sözü "**əlavə təhsilini**" sözləri ilə, 9.15-ci bəndində "**ixtisasının artırılması**" sözləri "**əlavə təhsili**" sözləri ilə əvəz edilmişdir.

xii[12] 26 dekabr 2008-ci il tarixli 40 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 12, maddə 1069)** ilə 9.10-cu bənddə «**Mülki müdafiə qoşunlarının hərbi qulluqçularının, mülki işçilərinin, pensiyaçılarının və onların ailə üzvlərinin sağlamlığının qorunması istiqamətində**» sözləri «**Mülki müdafiə qoşunlarının hərbi qulluqçularının, digər işçilərinin və onların ailə üzvlərinin, habelə pensiyaçılarının sağlamlığının qorunması istiqamətində qanunvericiliklə müəyyən edilmiş qaydada**» sözləri ilə əvəz edilmişdir.

xiii[13] 26 dekabr 2008-ci il tarixli 40 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 12, maddə 1069)** ilə 17-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~17. Mülki müdafiə qoşunlarının hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləği və pul təminatının digər növləri Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləğinə və pul təminatının digər növlərinə uyğun olaraq müəyyən edilir.~~

xiv[14] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 18 fevral 2011-ci il, № 38, “Azərbaycan” qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 85)** ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Hərbiləşdirilmiş Xüsusi Mühafizə Xidməti haqqında Əsasnamə”nin 8.16-cı bəndində “**peşə, kadr və xüsusi hazırlığını, onların təkmilləşdirilməsini və ixtisaslarının artırılmasını**” sözləri “**kadrların peşə və xüsusi hazırlığını və onların əlavə təhsilini**” sözləri ilə, 9.11-ci bəndində “**ixtisasının artırılması**” sözləri “**əlavə təhsili**” sözləri ilə əvəz edilmişdir.

xv[15] 27 noyabr 2008-ci il tarixli 26 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 28 noyabr 2008-ci il, № 267, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 11, maddə 980**) ilə "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyi haqqında Əsasnamə"nin 9.7-ci bəndində "**Azərbaycan Respublikası Nazirlər Kabineti yanında**" sözləri "**Azərbaycan Respublikasının**" sözləri ilə əvəz edilmişdir.

xvi[16] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 18 fevral 2011-ci il, № 38, “Azərbaycan” qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 85)** ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyi haqqında Əsasnamə”nin 9.27-ci bəndində “**, təkmilləşməsini və ixtisasının artırılmasını**” sözləri “**və əlavə təhsilini**” sözləri ilə əvəz edilmişdir.

xvii[17] 26 dekabr 2008-ci il tarixli 40 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 12, maddə 1069)** ilə Əsasnamə»nin 18-ci bəndində «**Müfəttişliyin xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə və xüsusi rütbəyə görə maaşlarının məbləği və pul təminatının digər növləri Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləğinə və pul təminatının digər növlərinə uyğun olaraq,**» sözləri «**Müfəttişliyin xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə və xüsusi rütbəyə görə maaşlarının məbləği Azərbaycan Respublikasının Prezidenti tərəfindən, pul təminatının digər növlərinin ödənilməsi qaydaları isə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.**» sözləri ilə əvəz edilmişdir.

xviii[18] 26 dekabr 2008-ci il tarixli 40 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 12, maddə 1069)** ilə Əsasnamə»nin 9.9-cu bənddə «**Agentliyin aparatının hərbi qulluqçularının, aparatının və tabeliyində olan bölmələrin mülki işçilərinin, pensiyaçılarının, onların ailə üzvlərinin sağlamlığının qorunması istiqamətində**» sözləri «**Agentliyin aparatının hərbi qulluqçularının, aparatının və tabeliyində olan bölmələrin digər işçilərinin və onların ailə üzvlərinin, habelə pensiyaçılarının sağlamlığının qorunması istiqamətində qanunvericiliklə müəyyən edilmiş qaydada**» sözləri ilə əvəz edilmişdir.

24 noyabr 2015-ci il tarixli **693** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 25 noyabr 2015-ci il, № 259)** ilə "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyi haqqında Əsasnamə"nin 9.9-cu bənddən "**aparatının hərbi qulluqçularının**," sözləri çıxarılmışdır, "**digər işçilərinin**" sözləri "**işçilərinin**" sözü ilə əvəz edilmişdir.

xix[19] 24 noyabr 2015-ci il tarixli **693** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 25 noyabr 2015-ci il, № 259)** "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyi haqqında Əsasnamə"nin 12-ci hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~12. Agentliyin aparatında ştata uyğun vəzifələr üzrə hərbi qulluğa qəbul və vəzifəyə təyin etmə, hərbi xidmətdən və vəzifədən azad etmə Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən həyata keçirilir.~~

~~Agentliyin mülki vəzifələrinə təyin və vəzifədən azad edilmə qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının fövqəladə hallar naziri tərəfindən həyata keçirilir.~~

xx[20] 24 noyabr 2015-ci il tarixli **693** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 25 noyabr 2015-ci il, № 259)** "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyi haqqında Əsasnamə"nin 13-cü hissədən "**mülki**" sözü çıxarılmışdır.

xxi[21] 26 dekabr 2008-ci il tarixli 40 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 12, maddə 1069)** ilə Əsasnamə»nin 14-cü bənddə «**Agentliyin aparatının hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləği və pul təminatının digər növləri Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləğinə və pul təminatının digər növlərinə**» sözləri «**Agentliyin aparatının hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləği Azərbaycan Respublikasının**

**Prezidenti tərəfindən, pul təminatının digər növlərinin ödənilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən»** sözləri ilə əvəz edilmişdir.

24 noyabr 2015-ci il tarixli **693** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 25 noyabr 2015-ci il, № 259)** "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyi haqqında Əsasnamə"nin 14-cü hissədən "**Agentliyin aparatının hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləği Azərbaycan Respublikasının Prezidenti tərəfindən, pul təminatının digər növlərinin ödənilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən**," və "**isə**" sözləri çıxarılmışdır.

**xxii**[22] 24 noyabr 2015-ci il tarixli **693** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 25 noyabr 2015-ci il, № 259)** "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyi haqqında Əsasnamə"nin 17-ci hissə ləğv edilmişdir.

**xxiii**[23] 24 noyabr 2015-ci il tarixli **693** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 25 noyabr 2015-ci il, № 259)** "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyi haqqında Əsasnamə"nin 22.3-cü bənddə "**hərbi qulluqçularının və sisteminə daxil olan büdcədən maliyyələşdirilən struktur bölmələrinin mülki**" sözləri " **, strukturuna daxil olan və tabeliyində olan bölmələrinin**" sözləri ilə əvəz edilmişdir.

**xxiv**[24] 16 sentyabr 2015-ci il tarixli **610** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 20 sentyabr 2015-ci il, № 206, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, №9, maddə 997)** ilə "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi haqqında Əsasnamə"nin 8.10-cu bəndinə "**sifarişçi funksiyalarını**" sözlərindən sonra "**(dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələri istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

**xxv**[25] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 85)** ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi haqqında Əsasnamə"nin 8.43-cü bəndində "**onların təkmilləşdirilməsi, ixtisaslarının artırılması**" sözləri "**kadrların əlavə təhsili**" sözləri ilə, 9.18-ci bəndində "**, təkmilləşdirilməsi və ixtisaslarının artırılması**" sözləri "**və əlavə təhsili**" sözləri ilə əvəz edilmişdir.